Korporativ İqlim İdarəetməsi (“Kİİ”):

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC üçün Fəaliyyət Planı və BMHS S2 üzrə Açıqlama. Kİİ üzrə Fəaliyyət Planının Hazırlanması

Yekun hesabat, Tapşırıq 3 – qaralama

versiyası 10 fevral 2025-ci il

Building a better working world

RƏSMİ İSTİFADƏ ÜÇÜN

Qısaltmalar

ASCO – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
Kİİ – Korporativ İqlim İdarəetməsi (CGG)
TKSTK – Treduey Komissiyasının Sposor Təşkilatları Komitəsi (COSO) DİD – Dayanıqlı
İnkişaf üzrə Direktor (CSO)
AYİB – Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) LESİ –
Layihələndirilən Enerji Səmərəliliyi İndeksi (EEDI)
ESİ – ətraf - Mühit, Sosial, İdarəetmə (ESG)
EAFP – Emissiyaların Azaldılması üzrə
Fəaliyyət Planı MRİ – Müəssisənin
Risklərinin İdarəedilməsi
AB ETS – Avropa İttifaqının Emissiyaların Ticarəti
Sistemi ÜSBQ - Üzən Saxlama və Boşaltma Qurğusu
(FSO)
İQ – İstixana Qazları (GHG)
QİP – Qlobal İstiləşmə Potensialı
(GWP) AY – Ağır yanacaq (HFO)
BMHS – Beynəlxalq Maliyyə Hesabatları Standartları
(IFRS) BDT – Beynəlxalq Dəniz Təşkilatı (IMO)
İDHEQ – İqlim Dəyişikliyi üzrə Hökumətlərarası
Ekspert Qrupu (IPCC) ƏİG – Əsas İcra Göstəricisi
MTQ – Maye Təbii Qaz (LNG)
KSƏTƏM – Keyfiyyət, Sağlamlıq, Təhlükəsizlik və
ətraf Mühit (QHSE) ÇİXND - Çox İri Xam Neft
Daşıyıcısı (VLCC)

Mündəricat

Qısaltmalar *2*
Mündəricat *3*
Şəkillərin siyahısı *4*
Cədvəllərin Siyahısı *4*
Bu hesabatın məqsədləri *5*
Qısa icmal *6*
1 Kİİ üzrə Fəaliyyət Planının Hazırlanması *9*
1.1 ASCO üçün Kİİ üzrə Fəaliyyət Planı *9*
2 Hesabat Vermə Sistemi və İƏMMAİQ / BMHS 2 Tələblərinə Riayət Etmə *13*
Yükun Nəticə *16*
əlavə A: ASCO-nun Kİİ təcrübələri və açıqlamalarının BMHS 2 tələblərinə uyğunluğunun təhlili *19*
Ümumi Baxış *19*
1. ASCO-nun İqlim İdarəetməsi üzrə təcrübəsinin təhlili *19*
2. ASCO-nun İqlim Strategiyası üzrə təcrübəsinin təhlili *28*
3. ASCO-nun İqlim Risklərinin İdarə olunması üzrə təcrübəsinin təhlili *37*
4. ASCO-nun İqlimlə bağlı Ölçü Göstəriciləri və Hədəfləri üzrə təcrübəsinin təhlili *40*
ASCO-nun Hesabat vermə üzrə təcrübəsinin təhlili *45*
əlavə B: Bənzər müəssisələrin qabaqcıl təcrübəsinə ümumi baxış *46*

Şəkillərin siyahısı

Şəkil 1. Açıqlanmış məlumatların keyfiyyəti baxımından qiymətləndirmə nəticələri 6
Şəkil 2. İqlimlə bağlı məsuliyyətlərin idarəetmə orqanları arasında təklif olunan bölgüsü 20
Şəkil 3. İqlimlə bağlı risk və imkanların müəyyən edilməsi, qiymətləndirilməsi və prioritetləşdirilməsi üzrə çərçivə 38

Cədvəllərin Siyahısı

Cədvəl 1. IFRS S2 ilə uyğunlaşdırılmalı olan tədbirlər 7
Cədvəl 2. Korporativ İqlim İdarəetməsi üzrə Fəaliyyət Planı 9
Cədvəl 3. Yenilənməli və hazırlanmalı sənədlərin siyahısı 18
Cədvəl 4. İqlimlə bağlı idarəetmə üzrə uyğunsuzluq təhlili 21
Cədvəl 5. İqlimlə bağlı strategiya üzrə uyğunsuzluq təhlili 28
İqlimlə bağlı risklərin idarə olunması üzrə uyğunsuzluq təhlili 38
Cədvəl 7. İqlimlə bağlı ölçü göstəriciləri və hədəflər üzrə uyğunsuzluq təhlili 40
Cədvəl 8. Bənzər müəssisələrin qabaqcıl təcrübələri 46

Bu hesabatın məqsədləri

Dəniz nəqliyyatı sənayesi dünya ticarətində mühüm rol oynadığı üçün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra "ASCO" və ya "Şirkət" adlandırılacaq) kimi belə dəniz nəqliyyatı sənayesi daxilində fəaliyyət göstərən şirkətlər istixana qazı emissiyalarının azaldılması üzrə qlobal səylərə töhfə vermək zərurətini getdikcə daha aydın dərk edirlər. Dəniz nəqliyyatı qitələrarası yükdaşımaların həyata keçirilməsi baxımından iqtisadiyyat üçün olduqca vacib olan tərkib hissədir, lakin eyni zamanda karbon emissiyalarının əsas mənbələrindən biridir. Bu ətraf mühit təsirinə cavab olaraq və normativ tələblərin və maraqlı tərəflərin gözləntilərinin inkişafı fonunda ASCO öz fəaliyyətini dayanıqlı təcrübələrlə uyğunlaşdırmaq və korporativ iqlim idarəetməsini (Kİİ) gücləndirmək üçün qabaqlayıcı tədbirlər görür.

Gəmiçiliyin texniki və əməliyyat baxımından mürəkkəbliyi səbəbindən dəniz sənayesi dekarbonizasiya sahəsində özünəməxsus çətinliklərlə qarşılaşır. Bununla belə, ASCO bu keçid prosesində fəal iştirak etmək, öz Korporativ İqlim İdarəetməsi (Kİİ) sistemini təkmilləşdirmək və hesabatlılığını BMHS S2 tələbləri ilə uyğunlaşdırmaq öhdəliyinə sadiq qalmaqdadır. Bu məqsədlə, şirkətə iqlimlə bağlı hesabat verilməsi prosesinin asanlaşdırılmasına şərait yaradacaq daxili islahatların həyata keçirilməsində texniki yardım göstərilir.

Bu Yekun Hesabat ASCO-nun iqlim idarəetməsi üzrə strategiyalarını və təcrübələrini təkmilləşdirmək üçün yol xəritəsi rolunu oynayır. Yekun Hesabat layihənin ilkin mərhələlərində əldə olunan nəticələr ümumiləşdirir və Şirkətin mövcud yanaşmasında müəyyən edilmiş boşluqların aradan qaldırılması üçün praktik tövsiyələr verir. Məqsəd yalnız ASCO-nun yalnız BMHS S2 tələblərinə uyğunluğun artırılması deyil, eyni zamanda ASCO-nun regionun dəniz nəqliyyatı sektorunda qabaqcıl şirkətlərdən birinə çevrilməsi, risklərin idarə olunması proseslərinin təkmilləşdirilməsi və iqlimlə bağlı açıqlamalarının şəffaflığının artırılmasıdır. Bunları yerinə yetirməklə ASCO, ətraf mühit, sosial və idarəetmə (ƏMS) meyarlarına daha çox diqqət yetirən investorlar, müştərilər və digər əsas maraqlı tərəflər qarşısında etibarlılığını gücləndirməyi hədəfləyir.

Hesabatın strukturu bu tapşırığın mahiyyətini əks etdirir və aşağıdakı əsas bölmələri əhatə edir:

1. **ASCO-nun Korporativ İqlim İdarəetməsi Təcrübələrinin və Açıqlamalarının Uyğunsuzluq Təhlili əsasında Korporativ İqlim İdarəetməsi Təcrübələrinin və Açıqlamalarının Təkmilləşdirilməsi üzrə Tövsiyələr (1-ci Bölmə):**Bu bölmədə ASCO-nun iqlim idarəetməsi və hesabatların verilməsi sahəsindəki mövcud vəziyyəti təhlil ediləcək, BMHS S2 tələblərinə uyğunluğun təmin edilməsi üçün təkmilləşdirilə biləcək sahələr müəyyənləşdiriləcəkdir. Həmin bölmədə, hazırda mövcud olan çərçivələrin ətraflı təhlili təmin ediləcək və ASCO-nun iqlimlə bağlı risk və imkanların idarə edilməsinə dair strateji yanaşmasını gücləndirməsi üçün imkanlar vurğulanacaqdır.
2. **ASCO üçün Korporativ İqlim İdarəetməsi üzrə Fəaliyyət Planı (2-ci Bölmə):**Uyğunsuzluq təhlili nəticəsində əldə edilmiş məlumatlara əsaslanaraq, bu bölmədə ASCO üçün xüsusi olaraq hazırlanmış strateji fəaliyyət planı təqdim ediləcəkdir. Planda şirkətin idarəetmə strukturlarını, risklərin idarə edilməsi proseslərini və açıqlama təcrübələrini gücləndirmək üçün həyata keçirə biləcəyi konkret, son icra müddəti müəyyənləşmiş məqsədlər və təşəbbüslər öz əksini tapacaqdır. Fəaliyyət planı həmçinin dəniz nəqliyyatı sektorunun ehtiyacları və imkanları nəzərə alınmaqla hazırlanacaq ki, tövsiyələr həm məqsədyönlü, həm də reallaşdırıla bilən olsun.

Hesabat, bu bölmələrə ASCO-nun dəniz nəqliyyatı sənayesindəki unikal mövqeyinə əsaslanaraq yanaşmaqla, şirkətin dayanıqlı gəmiçiliyə və əsaslı iqlim idarəetməsinə keçidini asanlaşdıracaq və iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərə töhfə verəcəkdir.

Qısa icmal

Korporativ İqlim İdarəetməsi üzrə Fəaliyyət Planı qarşılıqlı əməkdaşlığın üçüncü mərhələsini təşkil edir və ilkin və ara hesabatlarda müəyyən edilmiş müşahidə və nəticələr əsasında ASCO-nun iqlim idarəetməsi və dayanıqlılıq təcrübələrinin təkmilləşdirilməsinə yönəlmiş kompleks strategiyanın hazırlanmasını nəzərdə tutur. Başlanğıc Hesabatında ASCO-nun hesabat vermə təcrübəsi ilə BMHS S2 tələbləri arasında olan boşluqlar müəyyən edilmiş, habelə ASCO-nun məruz qaldığı iqlim riskləri və imkanlarının siyahısı tərtib olunmuşdur. Eyni zamanda, ASCO-nun BMHS S2 çərçivəsinə uyğunluq səviyyəsini qiymətləndirmək məqsədilə onun mövcud təcrübələrinin balla qiymətləndirmə aparılmışdır.


Hesabat ASCO-nun cari təcrübələrinin BMHS S2 tələblərinə cavab vermədiyi sahələri xüsusi qeyd etmişdir. Həmin uyğunsuzluqlar Şirkətin iqlimlə bağlı maliyyə açıqlamalarını təkmilləşdirmək üçün zəruri dəyişikliklərin həyata keçirilməsi məqsədilə diqqət edilməli olan sahələri müəyyən etmək üçün göstərici qismində çıxış edir. Sözügedən uyğunsuzluqların müəyyənləşdirilməsi ASCO-ya onları aradan qaldırmaq üçün strategiyalar hazırlamağa və onlarla bağlı müvafiq tədbirlər görməyə imkan yaradır.

Bundan əlavə, hesabatda iqlim dəyişikliyi nəticəsində ASCO-nun üzləşə biləcəyi risklərin hərtərəfli qiymətləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Bu risklər fiziki risklərdən – məsələn, infrastrukturun ekstremal hava şəraiti ilə bağlı meydana gələn hadisələrindən zərər görməsindən tutmuş keçid risklərinə məsələn, normativ tələblərində dəyişikliklər və ya qaz və neft məhsullarına olan tələbatın azalmasına qədər geniş spektri əhatə edə bilər. Bu riskləri başa düşmək ASCO-nun ciddi dayanıqlı strategiyalarının hazırlanması və uzunmüddətli dayanıqlılıq təmin etməsi üçün olduqca əhəmiyyətlidir.

Hesabat çərçivəsində ASCO-nun iqlimlə bağlı açıqlama təcrübələrinin müvafiq balla qiymətləndirilməsi aparılmışdır. Belə qiymətləndirmə, açıqlamaların aydınlığı və tamlığı, idarəetmə strukturları, risklərin idarə olunması prosesləri və hədəf təyin etmə mexanizmləri kimi meyarlar nəzərə alınmaqla təşkilatın BMHS S2 tələblərinə uyğunluq səviyyəsini müəyyən etmişdir. Bu cür balla qiymətləndirmə ASCO üçün təkamülün monitorinqi və ümumdünya qabaqcı təcrübələrə uyğunlaşma istiqamətində prioritet sahələrin müəyyənləşdirilməsi baxımından bir istinad nöqtəsi rolunu oynayır.

Şirkətin BMHS S2 tələblərinə uyğunluq baxımından yetkinlik səviyyəsi aşağıda təqdim olunur:

Şəkil 1. Açıqlanmış məlumatların keyfiyyəti baxımından qiymətləndirmə nəticələri



Ara Hesabat ASCO-nun məqsəd və hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm irəliləyişə səbəb olmuşdur. Əlavə hədəflərin müəyyən edilməsi vasitəsilə ASCO məqsədqoyma prosesini daha da dəqiqləşdirə, fəaliyyət səmərəliliyini artıra və əməliyyatlarında dayanıqlılıqla bağlı mühüm çağırışların öhdəsindən daha uğurla gələ bilər.

Yekun Hesabat ilkin mərhələdə müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması məqsədilə ASCO-nun təcrübələrinin təkmilləşdirilməsinə yönəlmiş hərtərəfli və tətbiq edilə bilən bir plan təqdim edir. Bu plan ASCO-nun əsas sahələr üzrə fəaliyyətini yaxşılaşdırmaq və aşkar olunmuş boşluq və uyğunsuzluqların aradan qaldırılması üçün həyata keçirə biləcəyi konkret addımları və təşəbbüsləri əhatə edir.

Fəaliyyət Planı müəyyən edilmiş uyğunsuzluqlar və onların şirkətin iqlim dayanıqlılığı və maliyyə nəticələrinə potensial təsiri əsasında ən vacib təkmilləşdirilməli olan sahələri önə çəkir. Fəaliyyət Planı sənaye üzrə qabaqcıl təcrübələri (bax: əlavə A), normativ standartları və maraqlı tərəflərin gözləntilərini nəzərə alaraq hər bir prioritet sahə üzrə əhatəli tövsiyələr və strategiyalar təqdim edir.

Bundan əlavə, Plan dayanıqlı idarəetmə strukturlarının yaradılmasını, maraqlı tərəflərlə qarşılıqlı əlaqələrin gücləndirilməsini, monitorinq və hesabatlılıq çərçivələrinin təkmilləşdirilməsini, habelə əməkdaşların hazırlanması və potensialının artırılması üçün təlimlərə sərmayə qoyulmasını tövsiyə edir.

Fəaliyyət Planının həyata keçirilməsi sayəsində ASCO müəyyən edilmiş uyğunsuzluq və boşluqları ardıcıl şəkildə aradan qaldıra, iqlim dayanıqlığını artıra, iqlimlə bağlı riskləri azalda və həm dayanıqlılıq, həm də maliyyə baxımından nəticələrini yaxşılaşdıra bilər. Bu yekun hesabat ASCO-nun beynəlxalq standartlara uyğunlaşma, maraqlı tərəflərin gözləntilərinin ödənilməsi və iqlim yönümlü və dayanıqlı biznes praktikasında lider mövqe tutmaq istiqamətində davamlı səyləri üçün strateji yol xəritəsi rolunu oynayır.

Cədvəl 1. BMHS S2-yə uyğunlaşdırılmalı olan tədbirlər

Zaman Diapozonu	BMHS S2-yə uyğunlaşdırılmalı olan (ətraflı məlumat üçün Cədvəl 2: Korporativ İqlim İdarəetməsi üzrə Fəaliyyət Planına baxın)
Mərhələ 1: Qısa Müddətli Dövr (0-12 ay)	• Ümumi
	▸ **Tədbir 1:**ASCO-nun iqlimlə bağlı bütün məlumatlarının ictimai sənədlərdə açıqlanması təmin edin.
	• İdarəetmə
	▸ **Tədbir 2:** ASCO-nun idarəetmə orqanlarına iqlimlə bağlı vəzifələri aydın şəkildə təyin edilməsi tövsiyə olunur. ▸ **Tədbir 3:** İdarəetmə orqanlarının iqlimlə bağlı risklər və imkanlara nəzarət funksiyasını həyata keçirməsi üçün rəsmi prosedurların formalaşdırılması tövsiyə olunur. Daxili sənədlərdə iqlimlə bağlı risk və imkanların idarə olunması üzrə nəzarət və prosedurları təsvir edin.
	▸ Strategiya
	▸ **Tədbir 4:** İqlimlə bağlı amillərin təsiri üzrə dəyər zəncirini xəritə şəklində müəyyənləşdirin və hər bir seqment üzrə riskə məruz qalmanı təhlil edin.
	▸ Risklərin idarə edilməsi
	▸ **Tədbir 5:** İqlimlə bağlı riskləri və imkanlar ASCO-nun Risklərin İdarə Olunması Çərçivəsinə inteqrasiya edin.
	▸ Ölçmələr və hədəflər
	▸ **Tədbir 6**: İqlim hədəflərinə dair konkret kəmiyyət göstəricilərini (ölçmələr) Elmi Əsaslı Hədəf Göstəriciləri Təşəbbüsü (SBTI) tələblərinə (o cümlədən baza ili və aralıq mərhələlərə) uyğun şəkildə müəyyən edin. ▸ **Tədbir 7:** İstixana qazı emissiyalarının ölçülməsi metodologiyasını İstixana Qazları Protokolu kimi beynəlxalq standartlara əsasən açıqlayın. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Ekspert Qrupunun (IPCC) emissiya əmsallarından istifadə etməklə daxili nəzarət və audit mexanizmlərini tətbiq edin. 3-cü əhatə dairəsi üzrə emissiyaların ölçülməsi metodologiyasını kateqoriyalar üzrə bölgü ilə açıqlamalar vermək şərtilə hazırlayın.
Mərhələ 2: Orta - müddətli Dövr (12 - 24 ay)	▸ İdarəetmə
	▸ **Tədbir 8:** İqlimlə bağlı risk və imkanlara nəzarəti həyata keçirmək vəzifəsi həvalə edilmiş İdarə Heyəti səviyyəsində Dayanıqlı İnkişaf üzrə Komitə adlanan bir Komitə yaradın.
	▸ Strategiya
	▸ **Tədbir 9:** ASCO-nun Strategiyasının növbəti yenilənməsi və Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planı (“bundan sonra EAFP adlandırılacaq”) arasında qarşılıqlı istinadları təmin edin.
	▸ Ölçmələr və hədəflər

	▸ **Tədbir 10:** Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planını yeniləyin və bu sənəddə kapital xərclərinin dəqiq hesablamaları, maliyyələşmə mənbələri, məsul şəxslər və mütləq iqlimlə bağlı hədəfləri göstərin. Sənədin etibarlılığı və qabaqcıl təcrübələrə uyğunluğu üçün üçüncü tərəf tərəfindən nəzərdən keçirilməsini təmin edin.
Mərhələ 3: Uzun Müddətli Dövr (24 ay və daha çox)	▸ **Strategiya** ▸ **Tədbir 11:** Resursların bölgüsü, dolayı iqlim strategiyaları habelə, maliyyə nəticələri nağd pul axınları ilə bağlı gözlənilən nəticələri açıqlayın. ▸ **Tədbir 12:** Daxili karbon qiymətinin hesablanması və iqlimlə bağlı fəaliyyət hədəfləri ilə əlaqələndirilmiş mükafatlandırma siyasətlərini hazırlayın və açıqlayın.

1 Korporativ İqlim İdarəetməsi üzrə Fəaliyyət Planının Hazırlanması

Bu fəsil, İqlimlə əlaqəli Maliyyə Məlumatlarının Açıqlanması üzrə İşçi Qrup / BMHS S2 standartlarına uyğunluq əsasında ASCO-nun idarəetmə, strategiya, risklərin idarə edilməsi, ölçmələr və hədəflər sahələrində müəyyən edilmiş əsas uyğunsuzluqların (boşluqların) aradan qaldırılması üçün müfəssəl bir yol xəritəsini təqdim edir. Yol xəritəsi əsas tədbirlərin və zaman çərçivələrinin yüksək səviyyədə baxışını təqdim edən Vizual Yol Xəritəsindən istifadə etməklə mərhələli və prioritetləşdirilmiş yanaşmanı formalaşdırır. Bu mexanizm eyni zamanda hər bir mərhələ üzrə konkret və ölçülə bilən məqsədlər, vəzifələrin və məsuliyyətin aydın şəkildə müəyyənləşdirilməsi üçün Məsuliyyət Təyin Etmə Çərçivəsi və təşəbbüslərin potensial təsir və resurs tələblərinə əsasən prioritetləşdirilməsi üçün Təsir / Səylər Matrisi ilə dəstəklənir. Təklif olunan tədbirlər ASCO-nun Korporativ İqlim İdarəetməsi təcrübəsində müəyyən olunmuş uyğunsuzluqların (boşluqların) aradan qaldırılması üzrə tövsiyələrə əsaslanır. Tövsiyələrin daha ətraflı təsfiri üçün zəhmət olmasa *Əlavə A* -ya: ASCO-nun Korporativ İqlim İdarəetməsi təcrübəsi və açıqlamalarının BMHS S2 tələblərinə uyğunluğunun təhlili bölməsinə baxın..

1.1 ASCO üçün Kİİ üzrə Fəaliyyət Planı

Cədvəl 2. Korporativ İqlim İdarəetməsi üzrə Fəaliyyət Planı

Tədbir №	Səylər	Cavabdeh vəzifəli şəxslər və nəzarət	Rəylər
Mərhələ 1: Qısamüddətli dövr (0-12 ay). Qısamüddətli dövrdə əsas diqqət iqlimlə bağlı məsələlərin mövcud çərçivələrə inteqrasiyası və formal idarəetmə strukturlarının yaradılması üzərində cəmlənəcəkdir.			
Ümumi			
Tədbir 1: ASCO-nun iqlimlə bağlı bütün məlumatlarının açıq (ictimai) sənədlərdə açıqlanması təmin edin.	**Aşağı**	Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup, İdarə Heyəti	İqlimlə bağlı məlumatlara qeyd olunanlarla məhdudlaşdırılmadan, aşağıdakılar daxildir: iqlimlə bağlı risklər və imkanlar və onların idarə edilməsi, iqlimlə bağlı ölçmələr və hədəflər və onların yerinə yetirilməsi metodologiyası, iqlimlə bağlı vəzifələr, iqlim ssenariləri təhlilinin nəticələri və s.
İdarəetmə			
Tədbir 2: ASCO-nun idarəetmə orqanlarına iqlimlə bağlı vəzifələri aydın şəkildə təyin edilməsi tövsiyə olunur.	**Aşağı**	Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup, İdarə Heyəti	İdarə Heyəti və onun Komitələrinin vəzifələrini istinadlar, səlahiyyətlər, qaydalar və digər korporativ sənədlər baxımından konsolidasiya edin. Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrupunun vəzifə təlimatlarında iqlimlə bağlı məsuliyyətləri rəsmi şəkildə qeyd edin. Dayanıqlılıq və Emissiyalar üzrə Direktorun vəzifə təlimatında iqlimlə bağlı vəzifələri ayrıca göstərməklə onları vəzifə təlimatına daxil edin.

Tədbir №	Səylər	Cavabdeh vəzifəli şəxslər və nəzarət	Rəylər
			.
Tədbir 3:İdarəetmə orqanlarının iqlimlə bağlı risklər və imkanlara nəzarət funksiyasını həyata keçirməsi üçün rəsmi prosedurların formalaşdırılması tövsiyə olunur. Daxili sənədlərdə iqlimlə bağlı risk və imkanların idarə olunması üzrə nəzarət və prosedurları təsvir edin.	**Aşağı**	Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup, İdarə Heyəti	Üzvlərin iqlim strategiyalarına nəzarət bacarıqları və səriştələrinin qiymətləndirilməsi prosesinin təsvirini siyasətlərə, səlahiyyətlərə və / və ya İdarə Heyəti və onun Komitələrinin əsasnamələrinə daxil edin. Üzvlərin iqlimlə bağlı risk və imkanlar haqqında məlumatlandırılması prosesinin və tezliyinin təsvirini siyasətlərə, səlahiyyətlərə və / və ya İdarə Heyəti və onun Komitələrinin əsasnamələrinə daxil edin. İqlimlə bağlı məsələlərin İdarə Heyətinin strateji nəzarət prosedurlarına rəsmi inteqrasiyasını təmin edin. Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planında İdarə Heyətinin iqlimlə bağlı hədəflərə nəzarət prosedurunu və bu hədəflərə qarşı irəliləyişin nəzərdən keçirilmə tezliyini göstərin.
Strategiya			
Tədbir 4: İqlimlə bağlı amillərin təsiri üzrə dəyər zəncirini xəritə şəklində müəyyənləşdirin və hər bir seqment üzrə riskə məruz qalmanı təhlil edin.	**Orta**	Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup, İdarə Heyəti	İqlim risklərinə məruz qalan aktivlərin və biznes fəaliyyətlərinin faizini kəmiyyətcə ifadə edin.
Risklərin idarə edilməsi			
Tədbir 5: İqlimlə bağlı riskləri və imkanlar ASCO-nun Risklərin İdarə Olunması Çərçivəsinə inteqrasiya edin.	**Aşağı**	Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup , Risklərin İdarəedilməsi Komitəsi	ASCO tərəfindən əvvəlcədən müəyyən edilmiş iqlimlə bağlı risklərin təhlilini Risk Reyestrinə daxil edin. İqlimlə bağlı imkanlar da Risk Reyestrində nəzərə alınmalıdır. İqlimlə bağlı risklərin və imkanların müəyyən edilməsi, izlənməsi və qiymətləndirilməsi proseslərini ASCO-nun risklərin qiymətləndirilməsi üzrə daxili risk qiymətləndririlməsi sənədlərində rəsmi şəkildə əks olunmasını təmin edin.

Tədbir №	Səylər	Cavabdeh vəzifəli şəxslər və nəzarət	Rəylər
			Bunlara, iqlimlə bağlı risk və imkanların müəyyən olunması və qiymətləndirilməsi üçün prosedur / metodologiyalarda ssenari təhlilinin nəticələrinin nəzərə alınması da daxildir. Risklərin və imkanların idarə edilməsinin TKSTK-nın Müəssisənin Risklərinin İdarəedilməsi metodologiyasına, o cümlədən müvafiq risk terminologiyasına uyğunluğunu təmin edin.
Ölçmələr və hədəflər			
Tədbir 6: İqlim hədəflərinə dair konkret kəmiyyət göstəricilərini (ölçmələr) Elmi Əsaslı Hədəf Göstəriciləri Təşəbbüsü (SBTI) tələblərinə (o cümlədən baza ili və aralıq mərhələlərə) uyğun şəkildə müəyyən edin.	**Yüksək**	KSƏTƏM Departamenti və ətraf - mühit, sosial, idarəetmə üzrə İşçi Qrup	İqlimlə bağlı hədəflərə nail olma istiqamətində baş verən irəliləyişləri izləmək məqsədilə rüblük nəzərdən keçirmələr, Əsas İcra Göstəriciləri kimi mütəmadi nəzarət prosesiləri formalaşdırın. Bundan əlavə, yeni normativ sənədlər, texnoloji nailiyyətlər və sənaye üzrə əsas istiqamətlər nəzərə alınmaqla, iqlimlə bağlı hədəfləri illik əsasla nəzərdən keçirmək və onlara düzəliş etmək üçün nəzərdə tutulmuş prosesləri formalaşdırın. nəzərdən keçirmə (məsələn, rüblük icmallar), Əsas İcra Göstəricilərini və illik baxış prosesləri müəyyən edilməlidir.
Tədbir 7: İstixana qazı emissiyalarının ölçülməsi metodologiyasını İstixana Qazları Protokolu kimi beynəlxalq standartlara əsasən açıqlayın. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Ekspert Qrupunun (IPCC) emissiya əmsallarından istifadə etməklə daxili nəzarət və audit mexanizmlərini tətbiq edin. 3-cü əhatə dairəsi üzrə emissiyaların ölçülməsi metodologiyasını kateqoriyalar üzrə bölgü ilə açıqlamalar vermək şərtilə hazırlayın.	**Orta / Yüksək**	KSƏTƏM Departamenti və ətraf - mühit, sosial, idarəetmə üzrə İşçi Qrup	Tərəqqini qiymətləndirmək və təkmilləşdirmə sahələrini müəyyənləşdirmək məqsədilə üçüncü tərəfin təsdiqini əldə edin və sənaye üzrə oxşar şirkətlərlə müqayisəli təhlil aparın.
Mərhələ 2: Orta Müddətli Dövr (12-24 ay). Strateji İnteqrasiya və hesabatlılıq.Orta müddətli dövr ərzində əsas diqqət iqlimlə bağlı məsələlərin strateji planlaşdırmaya inteqrasiyasına və hesabat mexanizmlərinin formalaşdırılmasına yönələcək.			
İdarəetmə			
Tədbir 8: İqlimlə bağlı risk və imkanlara nəzarəti həyata keçirmək vəzifəsi həvalə edilmiş İdarə Heyəti səviyyəsində Dayanıqlı İnkişaf üzrə Komitə adlanan bir Komitə yaradın.	**Yüksək**	Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup, İdarə Heyəti	Alternativ olaraq ASCO bu vəzifələri Risk Komitəsinin səlahiyyətin əlavə edə bilər.

Tədbir №	Səylər	Cavabdeh vəzifəli şəxslər və nəzarət	Rəylər
Strategiya			
Tədbir 9: ASCO-nun Strategiyasının növbəti yenilənməsi və Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planı ("bundan sonra EAFP adlandırılacaq") arasında qarşılıqlı istinadları təmin edin. .	**Orta**	ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup, İdarə Heyəti	
Ölçmələr və hədəflər			
Tədbir 10: Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planını yeniləyin və bu sənəddə kapital xərclərinin dəqiq hesablamaları, maliyyələşmə mənbələri, məsul şəxslər və mütləq iqlimlə bağlı hədəfləri göstərin. Sənədin etibarlılığı və qabaqcıl təcrübələrə uyğunluğu üçün üçüncü tərəf tərəfindən nəzərdən keçirilməsini təmin edin.	**Orta**	ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup, Strategiya Departamenti	
Mərhələ 3: Uzun Müddətli Dövr (24 aydan artıq) — Davamlı Təkmilləşdirmə və Uyğunlaşma. Uzunmüddətli dövrdə diqqət davamlı təkmilləşdirmə, uyğunlaşma və iqlimlə bağlı hədəflərə nail olmağa yönələcək.			
Strategiya			
Tədbir 11: Resursların bölgüsü, dolayı iqlim strategiyaları habelə, maliyyə nəticələri nağd pul axınları ilə bağlı gözlənilən nəticələri açıqlayın.	**Yüksək**	Maliyyə Departamenti, ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup	
Tədbir 12: Daxili karbon qiymətlandırması strategiyası hazırlayın və açıqlayın. Həmçinin, iqlimlə bağlı fəaliyyət hədəfləri ilə əlaqəli olan mükafatlandırma siyasətləri hazırlayın.	**Orta**	Maliyyə Departamenti, ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrup	

2 Hesabat Vermə Sistemi və İƏMMAİQ / BMHS 2 Tələblərinə Riayət Etmə

BMHS S1: Dayanıqlılıqla Əlaqədar Maliyyə Məlumatlarının Açıqlanması üzrə Ümumi Prinsiplər

BMHS S1 – Dayanıqlılıqla əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər dayanıqlılıqla bağlı maliyya risk və imkanları barədə məlumat verilməsi üzrə təməl prinsipləri müəyyən edir. Bu açıqlamalar ilkin istifadəçilər üçün faydalı məlumat vermək üçün nəzərdə tutulmaqla yanaşı, onlara müəssisənin perspektivlərini, maliyyə göstəricilərini və dayanıqlı inkişafla bağlı strategiyalarını qiymətləndirməkdə kömək edir. BMHS S1 standartı məlumatların uyğunluq və dürüst təqdim olunması prinsiplərinə əsaslanır və açıqlamaların qərarvermə üçün həm mənalı, həm də dəqiq olmasını təmin edir. Eyni zamanda, müqayisə oluna bilənlik, yoxlanıla bilənlik, vaxtında təqdim edilmə və anlaşıqlı olma kimi keyfiyyət göstəricilərinin gücləndirilməsi maraqlı tərəflərə müəssisənin dayanıqlı inkişaf fəaliyyəti və ümumi nəticələri barədə daha yaxşı qiymətləndirmə imkanı yaradır.

BMHS S1 daxilində ən əsas konsepsiya "əhəmiyyətlilik" konsepsiyasıdır ki, bu meyar həm müəssisə üçün səciyyəvi və dinamik xarakterlidir və açıqlanmaması və ya yanlış təqdim olunması maraqlı tərəflərin maraqlarına təsir göstərə bilən məlumatın miqyasına və xarakterinə aiddir. Müəssisələrdən tələb olunur ki, qısa, orta və uzunmüddətli dövrlərdə nağd vəsait axınlarına, maliyyələşmə imkanlarına və ya kapitalın maya dəyərinə əhəmiyyətli təsir göstərə biləcək bütün əhəmiyyətli riskləri və imkanları açıqlasınlar. Əhəmiyyətliliyin müəyyən olunması mümkün gələcək risk və imkanlar da daxil olmaqla, həm kəmiyyət, həm də keyfiyyət qiymətləndirmələrinə əsaslanmalıdır. Standart dayanıqlı inkişafla bağlı idarəetmə, strategiya, risklərin idarə edilməsi, ölçmələr və hədəflər sahələrində əhatəli açıqlamaların təqdim edilməsini tələb edir. Bu açıqlamalar maliyyə hesabatları ilə əlaqələndirilmiş şəkildə və barəsində məumat verilən informasiya ətrafında fikir ayrılıqlarının qarşısının alınması təmin ediləcək formada təqdim olunmalıdır. Bundan əlavə, IFRS S1 əhəmiyyətli olmayan məlumatlarla əhəmiyyətli məlumatların kölgədə qalmasının qarşısının alınmasını və dayanıqlılıqla bağlı açıqlanan məlumatların aydın şəkildə fərqləndirilməsini tələb etməklə yanaşı, dayanıqlılıqla bağlı və maliyyə açıqlamalarının birləşdirilməsinin əhəmiyyətini xüsusi olaraq vurğulayır.

Dayanıqlılıqla bağlı açıqlamaların hazırlanması prosesində, xüsusilə də risklərin və imkanların müəyyənləşdirilməsi, düzgün ölçmələrin seçilməsi və əhəmiyyətlilik hədlərinin müəyyən olunması məsələlərində müəssisələr sağlam mühakimə qabiliyyəti nümayiş etdirməlidirlər. Ehtimallar gələcəkdə baş verəcək hadisələrə və ya subyektiv mülahizələrə əsaslandıqda, adətən ölçmədə qeyri-müəyyənlik olur. BMHS S1 müəssisələrdən tələb edir ki, hesabatda göstərilən məbləğlərə təsir edən hər hansı mühüm qeyri-müəyyənliyi açıqlasınlar və zəruri hallarda əvvəlki dövrlərə aid səhvləri düzəltsinlər. Bu ciddi çərçivə dayanıqlılıqla bağlı açıqlamaların şəffaf və etibarlı olmasını, eləcə də maliyyə hesabatları ilə uyğunluq təşkil etməsini təmin edir və nəticə etibarilə müəssisənin riskləri və imkanları barədə vahid təsəvvür yaradır.

Dəniz Nəqliyyatı Sektorunda BHMS S2 Standartına əsasən ASCO üzrə İqlimlə bağlı Açıqlamalar

BHMS S2 standartlarının tətbiqi dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən müəssisələrdən maliyyə və davamlılıq hesabatlarına əhatəli iqlimlə bağlı açıqlamaların daxil edilməsini tələb edir. Təbii yanacaq növlərindən geniş istifadə etməsi və qlobal istixana qazı emissiyalarına ciddi töhfə verməsi səbəbilə, dəniz sektoru ciddi normativ tələblər ilə üzləşməkdədir. Aşağıdakı məlumatlar BMHS S2-yə tam uyğunluğu təmin etmək məqsədilə dəniz nəqliyyatı şirkətləri tərəfindən nəzərə alınmalı olan əsas komponentləri təqdim edir. Bu komponentlər strukturlaşdırılmış hesabat, ətraflı göstəricilərin açıqlanması və beynəlxalq qabaqcıl təcrübələrlə uyğunluğa yönəlmişdir.

1. İstixana Qazı Emissiyalarına dair Hesabat Verilməsi

BMHS S2 standartına əsasən dəniz nəqliyyatı şirkətləri gəmi mühərriklərində dizel və bunker yanacaqlarının yanması nəticəsində yaranan ümumi qlobal 1-ci əhatə Dairəsi emissiyalarını açıqlamalıdır. 1-ci əhatə Dairəsi emissiyaları Kioto Protokolunda müəyyən edilmiş yeddi istixana qazını əhatə edir: karbon qazı (CO_2), metan (CH_4), azot oksidi (N_2O), hidrofluorkarbonlar (HFCs), perfluorkarbonlar (PFCs), kükürd hekzafluorid (SF_6) və azot trifluorid (NF_3).

İstixana Qazlarına dair hesabatı üçün əsas tələblərə aşağıdakılar daxildir:

- **Hesablama və Açıqlama:**Emissiyalar karbon qazı (CO_2) ekvivalentlərində 2014-cü ildə nəşr olunmuş İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Ekspert Qrupunun (IPCC) Beşinci Qiymətləndirmə Hesabatında müəyyən edilmiş Qlobal İstiləşmə Potensialı (GWP) dəyərlərinə əsasən hesablanmış metr tonlarla ifadə olunmalıdır. Metodologiya İstixana Qazı Protokolu çərçivəsinə uyğun olmalı, ardıcıl və şəffaf hesabat verməyi təmin etməlidir.

- **İcra Səmərəliliyinin Təhlili:**Şirkətlər əvvəlki hesabat dövrləri ilə müqayisədə emissiyalardakı dəyişikliklərə dair ətraflı təhlil təqdim etməlidirlər. Bu zaman azalmaların strateji təşəbbüslər, istismar dəyişiklikləri və ya birləşmə, satınalma və aktivlərin satışı kimi xarici amillərlə əlaqəli olub-olmadığı da göstərilməlidir.

- **Azaltma Hədəfləri:**Müəssisələr 1-ci əhatə Dairəsi emissiyalarının idarə edilməsi üzrə həm uzunmüddətli, həm də qısamüddətli strategiyalarını təqdim etməlidirlər. Bu strategiyalar çərçivəsində, istər mütləq, istərsə də intensivlik əsaslı azaldılma hədəfləri, bu hədəflərə çatmaq üçün müəyyən edilmiş mexanizmlər, vaxt cədvəlləri və həyata keçirilən fəaliyyətlərin qiymətləndirilməsi açıq şəkildə təqdim olunmalıdır.

2. Enerji İstehlakı və Yanacaq Qarışığı

Enerji istehlakı dəniz nəqliyyatının istismar səmərəliliyi və ətraf mühitə təsiri baxımından mühüm amildir. BMHS S2 standartına əsasən, dəniz nəqliyyatı şirkətləri enerji istifadəsi ilə bağlı ətraflı məlumatları açıqlamalı, xüsusilə istifadə olunan yanacaq növlərinə və bərpa olunan mənbələrdən əldə olunan enerjinin payına diqqət yetirməlidirlər.

Tələb olunan açıqlamalara aşağıdakılar aiddir:

- **Ümumi Enerji İstehlakı:** Şirkətlər hesabat dövrü ərzində istifadə etdikləri ümumi enerjini gigacoul (GC) ilə ifadə etməklə açıqlamalıdır. Bu, həm daxili istehsal olunmuş, həm də kənardan alınmış bütün enerji növlərini əhatə edir.

- **Yanacaq İstehlakı:** Yanacaq istehlakı üzrə, xüsusilə də, karbon baxımından intensiv olan ağır yanacağa (HFO) əsaslanan enerjinin faiz payı vurğulanmaqla, kateqoriyalara bölünmüş ətraflı açıqlama təqdim olunmalıdır. Bundan əlavə, şirkətlərdən külək, günəş və bioloji yanacaq kimi bərpa olunan enerji mənbələrindən əldə olunan enerjinin istehlakdakı faiz nisbətini də açıqlamaları tələb olunur.

- **Layihələndirilən Enerji Səmərəliliyi İndeksi (EEDI):** Müəssisələr donanmaya yeni daxil edilmiş gəmilər üzrə hər ton-dəniz mili başına düşən CO_2 emissiyasını ölçən orta Layihələndirilən Enerji Səmərəliliyi İndeksini (EEDI) açıqlanmalıdır. Bu göstərici gəmi quruluşu ilə hərəkət sistemlərinin səmərəliliyini əks etdirərək, sektorda emissiyaların icra səmərəliliyi üzrə müqayisə meyarı rolunu oynayır.

- **Ssenari Əsaslı Təhlil:** İqlimlə bağlı ssenari əsaslı təhlillərindən istifadə müxtəlif iqlim ssenariləri, məsələn, 1.5°C və ya 2°C qlobal istiləşmə ssenariləri çərçivəsində mümkün gələcək təsirləri qiymətləndirmək üçün olduqcə əhəmiyyətli bir alətdir.
  Müəssisələr bu təhlillərdə istifadə olunan fərziyyələr, metodologiyalar, nəticələr və onların biznesə təsirləri barədə hesabat verməlidirlər.

- **İnnovasiya və Səmərəlilik üçün Fürsətlər:**Şirkətlər, risklərlə yanaşı, məsələn, yanacağa qənaətli texnologiyalara sərmayə qoyuluşu, marşrutların optimallaşdırılması və mayeləşdirilmiş təbii qaz (LNG) və ya hidrogen kimi alternativ yanacaqlardan istifadə kimi təşəbbüslər vasitəsilə istismar səmərəliliyinin artırılması və emissiyaların azaldılması üçün mövcud imkanları müəyyən edib açıqlamalıdırlar.

3. Normativ və Bazar Əsaslı Mexanizmlərinə Uyğunluq

Dəniz nəqliyyatının qlobal xarakterini nəzərə alaraq, müəssisələr həm milli, həm də beynəlxalq çərçivələri əhatə edən mürəkkəb normativ mühitdə fəaliyyət göstərməlidirlər. BMHS S2 standartı şirkətlərin müvafiq iqlimlə bağlı normativ proqramlarda və bazar əsaslı mexanizmlərdə iştiraklarını və onlara uyğunluqlarını açıqlamasını tələb edir.

Dəniz nəqliyyatı şirkətləri, Beynəlxalq Dəniz Təşkilatının (IMO) dekarbonizasiya strategiyası kimi beynəlxalq sənədlərə, eləcə də Avropa İttifaqının Emissiya Ticarəti Sistemi (EU ETS) və Kaliforniya Emissiyaların Məhdudlaşdırılması və Ticarəti Proqramı (California Cap-and-Trade Program) kimi regional mexanizmlərə uyğunluğu təmin etməlidirlər.

N ə t i c ə

Dəniz nəqliyyatı sektorunda iqlim dəyişikliyi şirkətlərin, xüsusilə də ASCO kimi geniş regional və beynəlxalq fəaliyyət göstərən şirkətlər üçün uzunmüddətli dayanıqlılığına və rəqabət qabiliyyətinə təsir göstərən mühüm amilə çevrilmişdir. İqlimlə bağlı risklərin və imkanların artan şəkildə tanınması, bu məsələlərin şirkətin idarəetmə sistemlərinə, strateji planlaşdırmasına və qərar qəbuletmə proseslərinə inteqrasiyasını zəruri edir. Dəniz nəqliyyatı sektoru iqlim dəyişikliyinin təsirləri nəticəsində əhəmiyyətli restrukturizasiya, texnoloji irəliləyişlər və təchizat zəncirində mümkün pozuntularla üzləşir. ASCO kimi şirkətlərin artan normativ və maliyyə təzyiqləri ilə qarşılaşması ehtimal olunur və uyğunlaşma qabiliyyəti olmayanlar xarici maliyyələşmə və investisiya cəlb etməkdə çətinlik çəkə bilərlər. Əksinə, iqlim yönümlü innovasiyaları və dayanıqlılığı mənimsəyən şirkətlər, aşağı karbonlu dəniz nəqliyyatı həllərinə artan tələbatı qarşılamaqla yeni imkanlardan faydalana bilərlər.

Buna görə də ASCO-nun orta və uzunmüddətli inkişafını nəzərdən keçirərkən iqlimlə bağlı çətinliklərin mürəkkəb və sahələrarası xarakterini nəzərə almaq vacibdir. Belə çətinliklərin həlli idarəetmə qərarlarının qəbulunda, əməliyyatların həyata keçirilməsində və bütün təşkilati səviyyələrdə icra səmərəliliyinin monitorinqində dəyişikliklərin edilməsini tələb edir ki, bu da iqlimlə bağlı məsələlərin ASCO-nun əsas fəaliyyətlərinə səlis inteqrasiyasını təmin etsin.

Bu keçid əsaslı yanaşmanın uğurlu icrası dəqiq müəyyən edilmiş iqlim strategiyasının mövcudluğunu, rəhbərliyin fəal iştirakını, müxtəlif funksiyalar arasında əməkdaşlıq və əhəmiyyətli kapital investisiyasını tələb edir. BMHS S2-nin tövsiyələrinin həyata keçirilməsi vaxt və diqqətli planlaşdırma tələb edər və bu proses bir neçə çəkir. ASCO-nun mövcud təcrübələrində müəyyən edilən bəzi uyğunsuzluqlar (boşluqlar) qısamüddətli dövrdə aradan qaldırıla bilsə də, digərləri daha uzunmüddətli səylər və struktur dəyişiklikləri tələb edəcək. Müəyyən edilmiş həmin boşluqlar və tövsiyələr təxminən zaman çərçivələri ilə üç mərhələyə bölünə bilər.

İlkin mərhələdə ASCO bütün səviyyələrdə vəzifələrin, öhdəliklərin və proseslərin rəsmiləşdirilməsi yolu ilə möhkəm iqlim idarəetmə sistemi yaratmağa fokuslanacaq. Əsas tədbirlərə iqlimlə bağlı məlumatların açıqlanması, risklər və imkanlara nəzarətin idarəetmə strukturlarına inteqrasiyası, eləcə də Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrupunun, İdarə Heyətinin və əsas icraçı vəzifəli şəxslərin funksiyalarına müəyyən vəzifələrin daxil edilməsi daxildir. ASCO Risklərin İdarə Edilməsi Çərçivəsini TKSTK standartlarına uyğunlaşdıracaq, iqlim təsiri üzrə dəyər zəncirinin xəritəsini formalaşdıracaq və müntəzəm monitorinq ilə kəmiyyət hədəflərini müəyyən edəcəkdir. İqlimlə bağlı təşəbbüslər ASCO-nun növbəti Strategiyasının yeniləməsinə inteqrasiya ediləcək və bu proses emissiyaların azaldılması hədəfləri və sənaye üzrə qabaqcıl təcrübələrlə uyğunlaşdırılacaqdır. İlkin mərhələdə həyata keçiriləcək əsas tədbirlərə aşağıdakılar aid edilə bilər:

- **Tədbir 1: ASCO-nun iqlimlə bağlı bütün məlumatlarının ictimai sənədlərdə açıqlanması təmin edin.**
- **Tədbir 2: ASCO-nun idarəetmə orqanlarına iqlimlə bağlı vəzifələri aydın şəkildə təyin edilməsi tövsiyə olunur;**
  - İdarə Heyəti və onun Komitələrinin vəzifələrini istinadlar, səlahiyyətlər, qaydalar və digər korporativ sənədlər baxımından konsolidasiya edin.
  - Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrupunun vəzifə təlimatlarında iqlimlə bağlı məsuliyyətləri rəsmi şəkildə qeyd edin.
  - Dayanıqlılıq və Emissiyalar üzrə Direktorun vəzifə təlimatında iqlimlə bağlı vəzifələri ayrıca göstərməklə onları vəzifə təlimatına daxil edin.
- **Tədbir 3: İdarəetmə orqanlarının iqlimlə bağlı risklər və imkanlara nəzarət funksiyasını həyata keçirməsi üçün rəsmi prosedurların formalaşdırılması tövsiyə olunur;**
  - Üzvlərin iqlim strategiyalarına nəzarət bacarıqları və səriştələrinin qiymətləndirilməsi prosesinin təsvirini siyasətlərə, səlahiyyətlərə və / və ya İdarə Heyəti və onun Komitələrinin əsasnamələrinə daxil edin.
  - Üzvlərin iqlimlə bağlı risk və imkanlar haqqında məlumatlandırılması prosesinin və tezliyinin təsvirini siyasətlərə, səlahiyyətlərə və / və ya İdarə Heyəti və onun Komitələrinin əsasnamələrinə daxil edin.
  - İqlimlə bağlı məsələlərin İdarə Heyətinin strateji nəzarət prosedurlarına rəsmi inteqrasiyasını təmin edin.

Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planında İdarə Heyətinin iqlimlə bağlı hədəflərə nəzarət prosedurunu və bu hədəflərə qarşı irəliləyişin nəzərdən keçirilmə tezliyini göstərin.

Daxili sənədlərdə iqlimlə bağlı risk və imkanların idarə olunması üzrə nəzarət və prosedurları təsvir edin.

- **Tədbir 4: İqlimlə bağlı amillərin təsiri üzrə dəyər zəncirini xəritə şəklində müəyyənləşdirin və hər bir seqment üzrə riskə məruz qalmanı təhlil edin.**

  İqlim risklərinə məruz qalan aktivlərin və biznes fəaliyyətlərinin faizini kəmiyyətcə ifadə edin.
- **Tədbir 5: İqlimlə bağlı riskləri və imkanlar ASCO-nun Risklərin İdarə Olunması Çərçivəsinə inteqrasiya edin.**

  ASCO tərəfindən əvvəlcədən müəyyən edilmiş iqlimlə bağlı risklərin təhlilini Risk Reyestrinə daxil edin. İqlimlə bağlı imkanlar da Risk Reyestrində nəzərə alınmalıdır.

  İqlimlə bağlı risklərin və imkanların müəyyən edilməsi, izlənməsi və qiymətləndirilməsi proseslərini ASCO-nun risklərin qiymətləndirilməsi üzrə daxili risk qiymətləndririlməsi sənədlərində rəsmi şəkildə əks olunmasını təmin edin. Ssenari əsaslı təhlillərin nəticələrini də bura daxil edin.

  İqlimlə bağlı risklərin və imkanların müəyyən edilməsi, izlənməsi və qiymətləndirilməsi proseslərini ASCO-nun risklərin qiymətləndirilməsi üzrə daxili risk qiymətləndririlməsi sənədlərində rəsmi şəkildə əks olunmasını təmin edin. Bunlara, iqlimlə bağlı risk və imkanların müəyyən olunması və qiymətləndirilməsi üçün prosedur / metodologiyalarda ssenari təhlilinin nəticələrinin nəzərə alınması da daxildir.

  Risklərin və imkanların idarə edilməsinin TKSTK-nın Müəssisənin Risklərinin İdarəedilməsi metodologiyasına, o cümlədən müvafiq risk terminologiyasına uyğunluğunu təmin edin.
- **Tədbir 6: İqlim hədəflərinə dair konkret kəmiyyət göstəricilərini (ölçmələr) Elmi Əsaslı Hədəf Göstəriciləri Təşəbbüsü (SBTI) tələblərinə (o cümlədən baza ili və aralıq mərhələlərə) uyğun şəkildə müəyyən edin.**İqlimlə bağlı hədəflərə nail olma istiqamətində baş verən irəliləyişləri izləmək məqsədilə rüblük nəzərdən keçirmələr, Əsas İcra Göstəriciləri kimi mütəmadi nəzarət prosesiləri formalaşdırın. Bundan əlavə, yeni normativ sənədlər, texnoloji nailiyyətlər və sənaye üzrə əsas istiqamətlər nəzərə alınmaqla, iqlimlə bağlı hədəfləri illik əsasla nəzərdən keçirmək və onlara düzəliş etmək üçün nəzərdə tutulmuş prosesləri formalaşdırın. nəzərdən keçirmə (məsələn, rüblük icmallar), əsas İcra Göstəricilərini və illik baxış prosesləri müəyyən edilməlidir.
- **Tədbir 7: İstixana qazı emissiyalarının ölçülməsi metodologiyasını İstixana Qazları Protokolu kimi beynəlxalq standartlara əsasən açıqlayın. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Ekspert Qrupunun (IPCC) emissiya əmsallarından istifadə etməklə daxili nəzarət və audit mexanizmlərini tətbiq edin. 3-cü əhatə dairəsi üzrə emissiyaların ölçülməsi metodologiyasını kateqoriyalar üzrə bölgü ilə açıqlamalar vermək şərtilə hazırlayın.**Tərəqqini qiymətləndirmək və təkmilləşdirmə sahələrini müəyyənləşdirmək məqsədilə üçüncü tərəfin təsdiqini əldə edin və sənaye üzrə oxşar şirkətlərlə müqayisəli təhlil aparın.

İkinci mərhələdə ASCO iqlimlə bağlı mülahizələrin strateji əsas planlaşdırma və idarəetmə proseslərinə inteqrasiyasına üstünlük verəcəkdir. Bu mərhələdə iqlimlə bağlı risk və imkanlara nəzarəti həyata keçirmək vəzifəsi həvalə edilmiş İdarə Heyəti səviyyəsində Dayanıqlı İnkişaf üzrə Komitə adlanan bir Komitə yaradılacaqdır. Bundan əlavə, ASC Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planını yeniləyəcək və bu sənəddə kapital xərclərinin dəqiq hesablamaları, maliyyələşmə mənbələri, məsul şəxslər və mütləq iqlimlə bağlı hədəfləri göstərin. Sənədin etibarlılığı və qabaqcıl təcrübələrə uyğunluğu üçün üçüncü tərəf tərəfindən nəzərdən keçirilməsi təmin ediləcəkdir. Bu addımlar iqlimlə bağlı idarəetməni qərar qəbuletməyə daxil etmək və şəffaflığı və hesabatlılığı artırmaq məqsədi daşıyır.

- **Tədbir 8: İqlimlə bağlı risk və imkanlara nəzarəti həyata keçirmək vəzifəsi həvalə edilmiş İdarə Heyəti səviyyəsində Dayanıqlı İnkişaf üzrə Komitə adlanan bir Komitə yaradın.** Alternativ olaraq ASCO bu vəzifələri Risk Komitəsinin səlahiyyətin əlavə edə bilər.
- **Tədbir 9: ASCO-nun Strategiyanın növbəti dəfə nəzərdən keçirilməsi ilə Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planına arasında qarşılıqlı istinadları təmin edin.**
- **Tədbir 10: Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planını yeniləyin və bu sənəddə kapital xərclərinin dəqiq hesablamaları, maliyyələşmə mənbələri, məsul şəxslər və mütləq iqlimlə bağlı hədəfləri göstərin. Sənədin etibarlılığı və qabaqcıl təcrübələrə uyğunluğu üçün üçüncü tərəf tərəfindən nəzərdən keçirilməsini təmin edin.**

Üçüncü və yekun mərhələdə ASCO diqqətini iqlimlə bağlı tədbirlərin sistemli şəkildə həyata keçirilməsinə, monitorinqinə və onlar barədə hesabatların verilməsinə yönəldəcəkdir. Əsas tədbirlərə resursların bölgüsünün, dolayı iqlim strategiyalarının və gözlənilən maliyyə təsirlərinin açıqlanması, eləcə də daxili karbon qiymətinin işlənib hazırlanması və açıqlanması daxildir. İrəliləyiş Əsas İcra Göstəriciləri (ƏİG-lər) vasitəsilə eləcə də, uzunmüddətli iqlim hədəfləri, BMHS S2 tövsiyələri və inkişaf edən sənaye standartları ilə uyğunluğun üntəzəm qiymətləndirmələri vasitəsilə izlənilməkdir. Davamlı təkmilləşdirmə və uyğunlaşma ASCO-nun yanaşmasının əsas elementi olaraq qalacaq.

Bundan əlavə:

- **Tədbir 11: Resursların bölgüsü, dolayı iqlim strategiyaları habelə, maliyyə nəticələri nağd pul axınları ilə bağlı gözlənilən nəticələri açıqlayın.**
- **Tədbir 12: Daxili karbon qiymətlandırması strategiyası hazırlayın və açıqlayın. Həmçinin, iqlimlə bağlı fəaliyyət hədəfləri ilə əlaqəli olan mükafatlandırma siyasətləri hazırlayın.**

Cədvəl *3*. Yenilənməli və hazırlanmalı sənədlərin siyahısı

Yənilənməli olan sənədlər:	Hazırlanmalı olan sənədlər:
► İdarə Heyətinin və onun Komitələrinin səlahiyyətləri / mandatları / vəzifə təlimatları ► ASCO-nun Strategiyası, korporativ risklərin idarə olunması sistemi üzrə Siyasət, büdcə siyasəti və s. ► Təşkilati strukturun təsvirinin yenilənməsi. ► İdarə Heyətinin məqsəd və Əsas İcra Göstəricilərinin (ƏİG) yenilənməsi. ► İstixana qazı emissiyalarının azaldılması üzrə cari fəaliyyət planının yenilənməsi. ► İqlimlə bağlı risklərin təşkilatın biznesinə, strategiyasına və maliyyə planlaşdırmasına təsirinə dair daxili qaydaların yenilənməsi və ya BMHS S2-nin müxtəlif iqlim riskləri kateqoriyalarını əhatə edən yeni sənədin hazırlanması	► İqlimlə bağlı ssenari əsaslı təhlildə istifadə olunan metodologiyanı, ilkin məlumatları və fərziyyələri ətraflı şəkildə açıqlayan hesabat və bu məlumatların maliyyə və dayanıqlılıq hesabatlarında açıqlanmasının təmin olunması. ► İqlimlə bağlı risklər və imkanlar üzrə hesabatlılıq üçün aydın göstəriciləri və meyarları əhatə edən sənəd. ► İcraçı və əməkdaşların mükafatlandırılmasını iqlimlə bağlı fəaliyyət hədəfləri ilə əlaqələndirən mükafatlandırma siyasətləri. ► 3-cü əhatə Dairəsi üzrə emissiyalarının ölçülməsi metodologiyası. ► İqlimlə bağlı fəaliyyət hədəfləri ilə bağlı mükafat siyasətləri.

Əlavə A: ASCO-nun Kİİ təcrübələri və açıqlamalarının BMHS 2 tələblərinə uyğunluğunun təhlili

İcmal

Bu fəsildə ASCO-nun açıqlamalarının BMHS S2 tələbləri ilə uyğunluq təhlili təqdim olunur və bu təhlil dörd əsas sütun üzrə qurulub: İdarəetmə, Strategiya, Risklərin İdarə Olunması, habelə Ölçmələr və Hədəflər. Hər bir alt-fəsil cari təcrübələri müəyyən edən və beynəlxalq standartlara uyğunluğun təmin olunması üçün təkmilləşdirmə imkanlarını xüsusi qeyd edən konkret sahələri araşdırır. Təkliflərin prioritetləşdirilməsi üçün onların potensial faydası və həyata keçirilməsi üçün tələb olunan resurs qiymətləndirmələri nəzərə alınaraq təsir-səylər ölçmələrindən istifadə olunmuşdur. Yüksək təsirli tövsiyələr ASCO-nun iqlimlə bağlı idarəetmə və uyğunluğunu əhəmiyyətli dərəcədə yaxşılaşdıran tədbirləri əhatə edir, halbuki, yüksək səylə həyata keçiriləcək tövsiyələr isə əhəmiyyətli vaxt, resurs və dəyişikliklər tələb edir. Bu yanaşma, ən faydalı tədbirlərin müəyyən edilməsini və onların icrası üçün tələb olunan səylərin aydın şəkildə başa düşülməsini təmin edir və beləliklə məlumatlı qərarların qəbuluna və resursların səmərəli bölgüsünə şərait yaradır. Təhlilin məqsədi ASCO-nun iqlimlə bağlı idarəetməsini gücləndirmək və iqlimlə bağlı risk və imkanların bütün təşkilati səviyyələrdə səmərəli şəkildə idarə olunmasını təmin etməkdir.

1. ASCO-nun İqlim İdarəetməsi üzrə təcrübəsinin təhlili

ASCO-nun iqlimlə bağlı idarəetmə təcrübəsinin təhlilinin məqsədi təşkilatın iqlimlə bağlı idarəetmə üzrə mövcud fəaliyyət modelinə ümumi baxış təqdim etmək və təkmilləşdirmə tələb olunan sahələri müəyyən etməkdir. ASCO-nun idarəetmə orqanları arasında iqlimlə bağlı effektiv kommunikasiyanın qurulması və müvafiq vəzifələrin səmərəli bölüşdürülməsi korporativ idarəetmə praktikasının əsasını qoyur və iqlimlə bağlı risk və imkanların idarə olunmasının bütün səviyyələrdə nəzərə alınmasını təmin edir. İqlimlə bağlı vəzifələrin nümunələri aşağıdakı _____ bölməsində təqdim olunmuşdur. . Bu bölmə ASCO-nun mövcud idarəetmə strukturunu göstərməklə iqlimlə bağlı vəzifələrin idarəetmə orqanları arasında təklif olunan bölgüsünü əks etdirir. Bu bölgü, iqlimlə bağlı məsələlərin təşkilatın bütün səviyyələrində qərar qəbuletmə proseslərinə inteqrasiyasını təmin edir. Məsuliyyətlər hər bir idarəetmə orqanının mövcud sahə üzrə bilik və təcrübəsini və funksiyalarını nəzərə almaqla strateji şəkildə bölüşdürülmüşdür ki, bu da səmərəliliyin və hesabatlılığın artırılmasına xidmət edir. Bu yanaşma aydın kommunikasiya, risklərin səmərəli idarə olunması və ASCO-nun strateji məqsədləri ilə uyğunluğun təmin olunmasına imkan yaradır və nəticədə təşkilatın iqlimlə bağlı çağırış və imkanlara hərtərəfli şəkildə cavab verməsini dəstəkləyir.

Şəkil 2. İqlimlə bağlı vəzifələrin idarəetmə orqanları arasında təklif olunan bölgüsü



ASCO-nun mövcud iqlimlə bağlı idarəetmə çərçivəsinin təhlili və idarəetmə orqanları arasında iqlimlə bağlı vəzifələrin təklif olunan bölgüsü əsasında aşağıdakı cədvəl Şirkətin təcrübəsinin müvafiq BMHS S2 tələbləri ilə uyğunluğunu əks etdirir. Cədvəldə ASCO-da iqlimlə bağlı idarəetmənin mövcud vəziyyəti ilə bağlı əsas müşahidə olunan məqamlar, idarəetmə strukturları və proseslərindəki uyğunsuzluqlar (boşluqlar) qeyd olunur və iqlimlə bağlı idarəetmə təcrübəsinin gücləndirilməsi üçün konkret tövsiyələr təqdim edilir.

Cədvəl 4. İqlimlə bağlı idarəetmə üzrə uyğunsuzluq təhlili

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Təşkilatlar iqlimlə bağlı risklər və imkanlarla bağlı vəzifələrin müvafiq orqan(lar) və ya şəxs(lər) üçün tətbiq olunan səlahiyyət təlimatlarında, mandatlarda, vəzifə təlimatlarında və digər əlaqədar siyasətlərdə necə əks olunduğu barədə məlumat təqdim etməlidir. ***(BMHS S2, Paraqraf 6a)***	ASCO-nun ən yüksək icra orqanı olan İdarə Heyəti və onun Komitələri (Satınalma, Risklərin İdarə Olunması, Kadrların İdarə Olunması Komitələri) dayanıqlılıqla bağlı vəzifələri müəyyən etmişdir. Lakin, BMHS S2 tələblərinə uyğunluğun təmin olunması üçün bu iqlimlə bağlı vəzifələrin rəsmi şəkildə onların qaydalarında, səlahiyyət təlimatlarında, mandatlarında və vəzifə təlimatlarında təsbit olunması zəruridir.	► İdarə Heyətinin iqlimlə bağlı vəzifələrini səlahiyyət və vəzifə təlimatlarında, mandatlarda, qaydalarda və digər korporativ sənədlərdə rəsmi şəkildə təsbit edin. Aşağıdakı cəhətlərin daxil edilməsi tövsiyə olunur: - ASCO-da iqlimlə bağlı məsələlərin strateji planlaşdırma və risklərin idarə olunmasına inteqrasiyasına nəzarət edilməsi. - İqlimlə bağlı siyasət və strategiyaların nəzərdən keçirilməsi və təsdiqi; - ASCO-nun iqlimlə bağlı hədəflər baxımından icra səmərəliliyi göstəricilərinin monitorinqi. . - İdarə Heyətinin Komitələrinin də iqlimlə bağlı vəzifələri onların siyasət, vəzifə təlimatları, mandat və səlahiyyət təlimatlarında rəsmi şəkildə təsbit edin. İdarə Heyətinin iqlimlə bağlı vəzifələrinin aşağıdakıları ehtiva etməsi tövsiyə olunur: - İqlimlə bağlı risklərin və imkanların ASCO-nun ümumi Strategiyasına inteqrasiyası, müəyyən edilmiş iqlim hədəfləri ilə uyğunluğun təmin edilməsi. - ASCO üzrə iqlimlə bağlı risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və monitorinqi, bu risklərin ümumi risklərin idarə olunması çərçivəsinə inteqrasiya edilməsi.	► **Aşağı**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
		Həmçinin tövsiyə olunur ki, İdarə Heyətinin Komitələrinə onların səlahiyyətləri və nəzarət sahələrinə uyğun olaraq rəsmi şəkildə iqlimlə bağlı vəzifələr həvalə olunsun. Məsələn: **Risklərin İdarəedilməsi Komitəsi:** - ASCO-nun fəaliyyətlərinə və aktivlərinə təsir edə biləcək iqlimlə bağlı risklərin müəyyən edilməsi və qiymətləndirilməsi; - Risklərin azaldılması və uyğunlaşdırılması strategiyalarının hazırlanması və həyata keçirilməsi; - ətraf mühitlə bağlı tənzimləmə və standartlara uyğunluğun təmin olunması **Satınalmalar Komitəsi:** - Satınalma siyasətlərinə iqlimlə bağlı risklərin idarə olunması meyarlarının daxil edilməsi; - Təchizat zəncirində iqlim risklərinin idarə olunması üzrə təchizatçılarla əməkdaşlıq. **Personalın İdarəedilməsi Komitəsi:** - Dayanıqlılıq və ətraf mühitə qarşı məsuliyyət dəyərlərinə əsaslanan korporativ mədəniyyətin təşviqi; - Əməkdaşlar, o cümlədən sahədə çalışan mütəxəssislər üçün iqlimlə bağlı məsələlər üzrə təlim proqramlarının həyata keçirilməsi; - Aşağı karbonlu iqtisadiyyata keçidin əmək resursları üzrə nəticələrinin idarə olunması	

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
		► ASCO-nun Dayanıqlılıq Siyasətində təklif olunduğu kimi, iqlimlə bağlı risklər və imkanların idarə olunması da daxil olmaqla dayanıqlılıq məsələlərinə nəzarət edən ayrıca İdarə Heyəti səviyyəsində Komitənin — məsələn, Dayanıqlı İnkişaf Komitəsinin yaradılması tövsiyə olunur. . Bu Komitənin üzvlərinin iqlimlə bağlı vəzifələri daxili sənədlərdə (mandatlar, səlahiyyət təlimatları, vəzifə təlimatlarıı və s.) rəsmi şəkildə təsbit edilməlidir. Əgər ayrıca Komitə yaradılması mümkün deyilsə, yuxarıda qeyd olunan vəzifələr **Riskl Komitəsinin** mandat və səlahiyyət təlimatına əlavə edilə bilər.	
Müəssisələr, orqan(lar)ın və ya şəxs(lər)in iqlimlə bağlı risklərə və imkanlara cavab verməküçün nəzərdə tutulmuş strategiyalara nəzarət etmək məqsədilə müvafiq bacarıq və səriştələrin mövcud olub-olmadığını və ya inkişaf etdiriləcəyini necə müəyyən etdikləri barədə məlumatları açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 6a)***	İdarə Heyətinin və onun Komitələrinin üzvlərinin iqlimlə bağlı strategiyaların idarə olunması üçün zəruri olan təcrübəyə malik ola biləcəklərinə baxmayaraq, üzvlərin bacarıq və səriştələrinin qiymətləndirilməsi və ya inkişaf etdirilməsi üçün rəsmi proses daxili sənədlərdə təsbit olunmayıb.	► İqlimlə bağlı strategiyalara nəzarət etmək məqsədilə üzvlərin bacarıq və səriştələrinin qiymətləndirilməsi prosesinin təsvirinin İdarə Heyətinin, Satınalma Komitəsinin, Risklərin İdarə Edilməsi Komitəsinin və Personalın İdarə Edilməsi Komitəsinin siyasətlərində, mandatlarında və / və ya səlahiyyət təlimatlarında əks etdirilməsi tövsiyə olunur. ► İdarə Heyəti üzvləri üçün iqlimlə bağlı risklərin və imkanların idarə olunması mövzusunda silsilə təlim seminarlarının keçirilməsi və onların səriştələrinin daxili və açıq sənədlərdə əks etdirilməsi tövsiyə olunur.	► **Aşağı**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisələr iqlimlə bağlı risklər və imkanlar barədə orqan(lar)ın və ya şəxsin(lərin) necə və hansı tezliklə məlumatlandırıldığını açıqlamalıdır; ***(BMHS S2, Paraqraf 6a)***	İqlimlə bağlı risklər və imkanlar barədə İdarə Heyətinin və onun Komitələrinin məlumatlandırılması prosesi və tezliyi ASCO-nun korporativ sənədlərində rəsmi olaraq təsbit olunmayıb.	► Siyasətlərdə, mandatlarda və / və ya səlahiyyət təlimatlarında idarəetmə orqanlarının iqlimlə bağlı risklər və imkanlar barədə məlumatlandırılması prosesinin və tezliyinin təsvirinin verilməsi tövsiyə olunur. Məsələn, İdarə Heyəti üzvlərinə iqlimlə bağlı məsələlər barədə ən azı ildə bir dəfə məlumat verilməlidir, bu isə iclas protokollarında və gündəliklərdə əks etdirilə bilər.	► **Aşağı**
Müəssisələr orqan(lar)ın və ya şəxsin(lərin) təşkilatın strategiyasına, əsas əməliyyatlara dair qərarlarına, risklərin idarə olunması proseslərinə və əlaqədar siyasətlərinə nəzarət edərkən iqlimlə bağlı risk və imkanları necə nəzərə aldıqları, o cümlədən həmin risk və imkanlarla bağlı güzəştləri nəzərdən keçirib-keçirmədikləri barədə məlumat açıqlamalıdır; ***(BMHS S2, Paraqraf 6a)***	ASCO-da İdarə Heyəti və onun Komitələrinin Şirkətin Strategiyasına, əsas qərarlarına, risklərin idarə olunmasına və əlaqədar siyasətlərə nəzarət edərkən iqlimlə bağlı risk və imkanları nəzərə aldıqları bildirilmişdir, lakin bu hələlik daxili sənədlərdə əks olunmayıb.	► Bu səbəbdən də, iqlimlə bağlı məsələlərin İdarə Heyətinin strateji nəzarət prosedurlarına rəsmi inteqrasiya edilməsi tövsiyə olunur. Məsələn: ► Risklərin İdarə Edilməsi Komitəsi üçün ASCO-nun Strategiyasına və risklərin idarə olunması proseslərinə nəzarət edərkən iqlimlə bağlı risklərin nəzərə alınması prosesinin rəsmi şəkildə təsbit edilməsi və təsvir olunması tövsiyə olunur. ► Satınalmalar Komitəsi üçün ASCO-nun əhəmiyyətli əməliyyatlara dair qərarlarına və strategiyasına nəzarət edərkən iqlimlə bağlı risklərin nəzərə alınması prosesinin rəsmi şəkildə təsbir edilməsi və təsvir olunması tövsiyə olunur.	► **Aşağı**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
		► Personalın İdarə Edilməsi Komitəsi üçün isə personalın idarəedilməsi siyasətinə nəzarət çərçivəsində iqlimlə bağlı risklərin nəzərə alınması prosesinin rəsmi şəkildə təsbit edilməsi və təsvir olunması tövsiyə olunur. ► Bütün İdarə Heyəti Komitələri üçün iqlimlə bağlı məsələlər üzrə aydın hesabatvermə xəttinin və kommunikasiya kanallarının rəsmi şəkildə müəyyən edilməsi vacibdir. Bu, iqlimlə bağlı məsələlərin İdarə Heyətinə necə təqdim olunması və maraqlı tərəflərə necə açıqlanması, eləcə də bu məsələlər üzrə əks məlumatlandırmanın ASCO-nun strateji planlaşdırma və risklərin idarə olunması proseslərinə necə inteqrasiya olunduğunu müəyyən edən mexanizmləri əhatə etməlidir.	
Müəssisələr, bu orqan(lar)ın və ya şəxsin(lərin) iqlimlə bağlı risklər və imkanlarla əlaqədar hədəflərin müəyyən olunmasına, həmin hədəflərə doğru irəliləyişin monitorinqinə necə nəzarət etdikləri barədə məlumat açıqlamalı, o cümlədən aidiyyəti icra səmərəliliyi göstəricilərinin mükafatlandırma siyasətinə daxil edilib-edilmədiyini və necə daxil edildiyini açıqlamalıdırlar. ***(BMHS S2, Paraqraf 6a)***	Hazırda korporativ sənədlər İdarə Heyəti və onun Komitələri üçün iqlimlə bağlı hədəflərin müəyyən edilməsinə, irəliləyişin monitorinqinə və aidiyyəti göstəricilərin mükafat siyasətlərinə inteqrasiyasına nəzarətin rəsmi şəkildə daxil edilməsi üçün imkanlarda daxil olmaqla daha geniş vəzifələr (öhdəliklər) çərçivəsini əks etdirir.	► Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planında İdarə Heyətinin iqlimlə bağlı hədəflərə nəzarət prosedurunu və bu hədəflərə qarşı irəliləyişin nəzərdən keçirilmə tezliyini göstərin. ► ASCO-nun mükafatlandırma siyasətlərinə iqlimlə bağlı icra səmərəliliyi göstəricilərini əlavə etmək tövsiyə olunur.	► **Orta**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisələr bu funksiyanın müəyyən bir idarəetmə səviyyəsindəki şəxsə və ya idarəetmə səviyyəsindəki komitəyə həvalə olunub-olunmadığı və həmin şəxsə və ya komitəyə nəzarətin necə həyata keçirildiyi barədə məlumat təqdim etməlidirlər. ***(BMHS S2, Paraqraf 6b)***	2023-cü ildə ASCO Dayanıqlı İnkişaf və Emissiyaların İdarə Olunması üzrə Direktorunun rəhbərliyi altında Ətraf - Mühit, Sosial, İdarəetmə Qrupu yaratmışdır. Lakin Qrupun səlahiyyətləri yalnız emissiyaların azaldılması tədbirlərini əhatə edir və iqlimlə bağlı risk və imkanların monitorinqi, idarə olunması və ya onlara nəzarəti özündə ehtiva etmir. ►	► Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrupunun fəaliyyət dairəsinə, mandatına və Qrupun üzvləri kimi müxtəlif aidiyyəti şöbə rəislərinin daxil edilməsi tövsiyə olunduğu üzvlərinin vəzifə təlimatlarına iqlimlə bağlı məsələlərin idarə olunmasını rəsmi şəkildə daxil etmək tövsiyə olunur. ► Bundan əlavə, Dayanıqlılıq və Emissiyalar üzrə Direktorun vəzifə təlimatında iqlimlə bağlı vəzifələri ayrıca göstərməklə onların vəzifə təlimatına daxil edilməsi tövsiyə olunur. Məsələn, bu vəzifələrə iqlimlə bağlı risklərin qiymətləndirilməsi, prioritetləşdirilməsi, monitorinqi və ümumi idarə olunması, habelə Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planı üzrə irəliləyişlə bağlı İdarə Heyətinə hesabat vermə daxil ola bilər.	► **Aşağı**
Müəssisələr rəhbərliyin iqlimlə bağlı risklərə və imkanlara nəzarəti dəstəkləmək üçün nəzarət mexanizmləri və prosedurlardan istifadə edib-etmədiyi və əgər istifadə olunursa, bu nəzarət və prosedurların digər daxili funksiyalara necə inteqrasiya olunduğu barədə məlumat təqdim etməlidirlər. ***(BMHS S2, Paraqraf 6b)***	Emissiyaların idarə olunmasına dair siyasətlər, planlar və proqramlar ildə iki dəfə Sədr tərəfindən nəzərdən keçirilir və təsdiq olunur, lakin daxili sənədlərdə iqlimlə bağlı risk və imkanların nəzərdən keçirmə prosesində nəzərə alındığına dair heç bir dəlil mövcud deyil.	► Daxili sənədlərdə iqlimlə bağlı risk və imkanların idarə olunması üzrə nəzarət və prosedurların təsvir edilməsi tövsiyə olunur. Məsələn, Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrupunun salahiyyət təlimatında və Davanıqlı İnkişaf və Emissiyaların İdarə Olunması üzrə Direktorun vəzifə təlimatlarında, mandatlarında və qaydalarında. Aidiyyəti sənədlərə mütəmadi hesabat vermə tələbi daxil edilə bilər.	► **Aşağı**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
		► Bundan əlavə, ASCO "İqlim dəyişmələrinə dair əməkdaşlıq siyasəti" adlı daxili sənəd hazırlaya bilər. Bu sənəd ASCO-nun idarəetmə orqanları arasında xüsusi koordinasiya prosesini müəyyən etməlidir (məsələn, hansı hallarda məsələlər funksiyalararası xarakter alır, bu məsələlər digər funksiyalara necə və nə vaxt ötürülür, məsuliyyət onların arasında necə bölüşdürülür, nəticə barədə kim hesabat verir, hesabatvermə tezliyi necədir, İstixana qazı emissiyalarının 2 və 3-cü əhatə dairəsi üzrə hesablanması və monitorinqi necə aparılır). . Sənəd idarəetmə səviyyəsində iqlim üzrə idarəetməni də təsvir etməlidir.	

2. ASCO-nun İqlim Strategiyası üzrə təcrübəsinin təhlili

ASCO özünün daxili və xarici maraqlı tərəflərinin qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrlərdə ASCO-nun biznes və maliyyə strategiyalarına təsir göstərə bilən iqlimlə bağlı çağırışlar barədə lazımi qaydada məlumatlandırılmasını təmin etməlidir. Bu qiymətləndirmə Başlanğıc Hesabatının 5.3-cü bölməsindəki iqlimlə bağlı strategiya üzrə uyğunsuzluqların təhlilini tamamlayır və ASCO-nun Strategiyasının BMHS S2 iqlim strategiyası tələblərinə nə dərəcədə uyğun olması səviyyəsinə diqqət yetirir. Belə qiymətləndirmə həmçinin, ASCO-nun strateji planlaşdırmasına iqlim məsələlərinin inteqrasiyasına dair əlavə tövsiyələr təqdim edir.

BMHS S2 standartlarına əsaslanan bu qiymətləndirmə ASCO üçün müxtəlif zaman çərçivələri üzrə iqlimlə bağlı risklərin və imkanların müəyyən edilməsini əhatə edir. Qiymətləndirmə bu amillərin ASCO-nun əməliyyatlarına, strateji istiqamətinə və maliyyə planlaşdırmasına necə təsir etdiyini araşdırır. Bundan əlavə, qiymətləndirmə ASCO-nun Strategiyasının müxtəlif iqlim ssenariləri, o cümlədən temperatur artımının 2°C və ya daha az səviyyədə məhdudlaşdırılmasına yönəlmiş ssenarilər fonunda dayanıqlılığını dəyərləndirir.

Cədvəl *5.* İqlimlə bağlı strategiya üzrə uyğunsuzluq təhlili

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisələr onların gələcək perspektivlərinə təsir göstərə biləcək iqlimlə bağlı risklər və imkanlar barədə məlumat təqdim etməlidirlər. • Xüsusilə də müəssisənin gələcəyinə təsir göstərə biləcək iqlimlə bağlı risklər və imkanlar barədə. • Müəyyən edilmiş hər bir riskin kateqoriyası (fiziki / keçid) göstərilməli və bu risklər və imkanlar üçün gözlənilən vaxt müddətləri (qısa, orta, uzunmüddətli) əlavə edilməlidir. • Vaxt müddətləri ilə bağlı əlavə izahlar verilməli habelə, belə vaxt müddətlərinin müəssisənin strateji planlaşdırmalarına uyğunluğu qeyd olunmalıdır.	• ASCO bəzi iqlimlə bağlı riskləri qısaca qeyd edir, məsələn: BDT-nin daha sərt emissiya tələbləri; Xəzər dənizinin suyunun azalması səbəbilə naviqasiyanın çətinləşməsi; yeni texnologiyalara sərmayə qoyuluşu ilə bağlı risklər; neft və qaz gəlirlərindən asılılıq; küləkli hava şəraiti. Potensial risklərin bu ümumi təsviri növə (fiziki və ya keçid) görə kateqoriyalaşdırmanı nəzərdə tutmur . • Həmin risklər ASCO-nun Risk Jurnalında və ya digər risklərin idarə edilməsi sənədlərində rəsmi şəkildə sənədləşdirilməyib.	İqlimlə bağlı riskləri fiziki risklər (məsələn, ekstremal hava hadisələri) və ya keçid riskləri (məsələn, normativ dəyişikliklər) kimi açıq şəkildə müəyyən edin və kateqoriyalaşdırın. Bu risklərin ehtimal və təsir dərəcəsinə əsasən vizual şəkildə göstərilməsi və prioritetləşdirilməsi üçün risk matrislərinin hazırlanması tövsiyə olunur. ► Məlum olan iqlim risklərini aşağıdakı kimi kateqoriyalara ayırın: Qısamüddətli (1-3 il): dərhal əməliyyatlara təsir edən risklər; Ortamüddətli (3-10 il): tədricən dəyişən normativ və bazar şərtləri ilə bağlı risklər; Uzunmüddətli (10 ildən çox): qlobal ticarət marşrutları və infrastruktur ehtiyaclarında baş verəcək əhəmiyyətli dəyişikliklər. Bu risklərin ASCO-nun strateji planlaşdırma və qərar qəbuletmə proseslərinə hərtərəfli şəkildə inteqrasiyası təmin olunmalıdır. Məsələn, qısamüddətli risklərin illik əməliyyat planlaşdırması və büdcə proseslərinə daxil edilməsi.	• **Aşağı**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
(BMHS S2, Paraqraf 10)	• ASCO beynəlxalq dənizçilik hədəfləri və donanmaya xas emissiyaların azaldılması məqsədləri ilə bağlı müəyyən vaxt müddətlərinə istinad etsə də, digər əsas təşəbbüslər, risk kateqoriyaları və strateji planlaşdırma ilə uyğunluq baxımından vaxt müddətlərinin geniş və əhatəli açıqlanması mövcud deyil.	. Texniki xidmət qrafiklərinin, heyət üçün təlim proqramlarının və fövqəladə hallara cavab tədbirləri planlarının uyğun olaraq tənzimlənməsi tövsiyə olunur. Ortamüddətli risklər şirkətin kapital qoyuluşu qərarlarına və biznesin inkişafı strategiyalarına inteqrasiya oluna bilər. Məsələn, gələcək texnologiya yeniləmələri üçün maliyyə vəsaitinin ayrılması və ya iqlim risklərindən daha az təsirlənən yeni bazarların araşdırılması. Uzunmüddətli risklər şirkətin strateji baxışına və uzunmüddətli planlaşdırmasına daxil edilməlidir.	
Müəssisələr iqlimlə bağlı risklərin və imkanların cari və ehtimal olunan təsirlərinin müəssisənin biznes modeli və dəyər zənciri üzərində təsvirini və bu iqlimlə bağlı risk və imkanların müəssisənin biznes modelində və dəyər zəncirində harada cəmləndiyini (məsələn, coğrafi ərazilər, obyektlər və aktiv növləri) açıqlamalıdırlar. *(BMHS S2, Paraqraf 13)*	ASCO iqlimlə bağlı risk və imkanları müəyyən etmişdir, lakin onların biznes modelinə və dəyər zəncirinə, o cümlədən cəmlənmə sahələrinə təsirinin rəsmi müəyyənləşdirilməsi və qiymətləndirilməsi hələ həyata keçirilməmişdir.	ASCO-nun biznes modeli və dəyər zəncirinin vizual xəritəsini yaradın, əsas aktivlərin — limanlar, dəniz obyektləri — yerləşdiyi yerləri işarələyin və istixana qazı emissiyalarının yüksək olduğu və ya iqlim dəyişikliyi səbəbindən təchizat zəncirinin pozulması ehtimalı olan sahələri vurğulayın. • Biznes və dəyər zənciri daxilində iqlimlə bağlı risk və imkanların harada cəmləndiyini müəyyən etmək üçün təhlil aparın, əgər uyğundursa, bu bölgüləri coğrafiya üzrə fərqləndirin. • İqlimlə bağlı risk və imkanların gözlənilən təsirlərinin təsvirini təqdim edin.	• **Yüksək**
Müəssisə iqlimlə bağlı risk və imkanlara qarşı necə tədbir gördüyünü, necə tədbir görəcəyini planlaşdırdığını o cümlədən müəssisənin müəyyən etdiyi və ya qanun və ya qaydalarla qarşısına qoyulmuş iqlimlə bağlı məqsədlərə necə nail olmağı planlaşdırdığı barədə strategiya və qərar qəbuletmə prosesində necə davrandığı barədə məlumatları açıqlamalıdır.	ASCO, donanmanın modernləşdirilməsi və 2050-ci ilə qədər sıfır emissiyaya nail olmaq üçün mərhələli keçid planı da daxil olmaqla, alternativ yanacaqlara keçid və daha səmərəli gəmilərin tikintisi vasitəsilə 2030-cu ilə qədər İQ qazlarının emissiyasını 6.2% azaltmaq planı da daxil olmaqla, iqlim təşəbbüslərini açıqlayır.	• Bütün iqlimlə bağlı təşəbbüslərin, o cümlədən mövcud İQ emissiyasının azaldılması təşəbbüsünün müəyyən edilmiş iqlimlə bağlı risk və imkanlarla birbaşa əlaqəli olmasını təmin edin. • • ASCO-nun iqlimlə bağlı məqsədlərinə necə nail olacağına dair konkret tədbirləri əhatə edən ətraflı plan hazırlayın və ictimailəşdirin.	• **Orta**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
.. Müəssisə, xüsusilə də aşağıdakılarla bağlı məlumatları açıqlamalıdır: • İqlimlə bağlı risk və imkanların qarşısını almaq üçün resurs bölgüsü daxil olmaqla, biznes modelindəki hazırkı və gözlənilən dəyişikliklər; • Hazırkı və gözlənilən birbaşa azaldıcı və uyğunlaşdırıcı tədbirlər; • Hazırkı və gözlənilən dolayı azaldıcı və uyğunlaşdırıcı tədbirlər, • Müəssisənin malik olduğu hər hansı iqlimlə bağlı keçid planı və bu plan vasitəsilə müəyyən etdiyi iqlimlə bağlı məqsədlərə necə nail olacağı. ***(BMHS S2, Paraqraf 14a)***	. Lakin bu təşəbbüslərin birbaşa iqlimlə bağlı müəyyən edilmiş risklər və ya imkanlarla bağlı tədbir görməsinə dair heç bir sübut yoxdur.	. Bu plana 2030-cu ilə qədər istixana qazlarının (İQ) emissiyasının 6.2% azaldılması və 2050-ci ilə qədər sıfır emissiyaya nail olunması məqsədi daxildir. Planın müvəqqəti mərhələləri, resurs bölgüsü və donanmanın modernləşdirilməsi, alternativ yanacaqlara keçid və əməliyyat səmərəliliyinin artırılması kimi təşəbbüsləri aydın şəkildə əks etdirməsi tövsiyə olunur. Bundan əlavə, ASCO səylərinin Beynəlxalq Dəniz Təşkilatı (İMO) tərəfindən müəyyən edilənlər də daxil olmaqla hüquqi və normativ tələblərə uyğun olmasını təmin etməlidir. • Təchizat zəncirinə cəlb və ümumi iqlim təsirinin azaldılması üzrə maraqlı tərəflərlə birgə layihələr kimi dolayı iqlim azaldıcı və uyğunlaşdırıcı strategiyaları da açıqlayın.	
Müəssisə açıqlanan fəaliyyətləri maliyyələşdirmə və maliyyələşdirmə planları barədə məlumat açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 14b)***	ASCO 2023-cü ildə yaşıl enerji layihələrinin maliyyələşdirilməsi üçün AYİB (EBRD) ilə əməkdaşlığa başlamışdır, lakin maliyyə məbləğləri, şərtlər və vaxt qrafiki barədə konkret məlumat verilməmişdir.1	• Emissiyaların azaldılması üzrə tədbirlər planını yenidən işləyərək, iqlimlə bağlı təşəbbüslər üçün bütün maliyyə mənbələrinin, bu mənbələrin məbləğləri və onlara aid olan konkret şərtləri ətraflı şəkildə göstərən hərtərəfli hesabatı özündə əks etdirəcək formaya salın. Bu hesabatın ASCO-nun davamlılıq hesabatlarına inteqrasiya edilməsi tövsiyə olunur ki, şirkətin iqlim strategiyasını dəstəkləmək üçün maliyyə resurslarının necə bölündüyü şəffaf şəkildə təqdim olunsun.	• **Orta**

[1] Beynəlxalq Dəniz Təşkilatının ASCO üçün 2050-ci ilə qədər sıfır emissiya hədəfinə nail olmaq üçün strategiya və fəaliyyət planı

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
		• Resurs bölgüsü üzrə açıqlamanın həm kapital xərclərini, həm də davamlılıq təşəbbüslərinə həsr olunmuş personal və texnoloji resurslar kimi əməliyyat xərclərini əhatə etməsi tövsiyə olunur.	
Müəssisə **əvvəlki hesabat dövrlərində açıqlanmış planların gedişatı barədə kəmiyyət və keyfiyyət məlumatlarını** açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 14c)***	ASCO-da iqlimlə bağlı təşəbbüslərin yaxın keşmişdə başlanması səbəbindən əvvəlki hesabat dövrlərində açıqlanmış planların gedişatı barədə məlumat açıqlanmayıb.	• Əvvəlki hesabatlarda bildirilmiş iqlimlə bağlı planların gedişatı barədə həm kəmiyyət, həm də keyfiyyət göstəricilərini təqdim edin. Bu məlumatlara, istixana qazı emissiyalarında əldə edilmiş azalma faizi, enerji baxımından səmərəli texnologiyalarla təchiz olunmuş gəmilərin sayı və ya modernləşdirilmiş gəmilərin ümumi donanmadakı payı kimi konkret göstəricilərin daxil edilməsi tövsiyə olunur. Əlavə olaraq, açıqlanacaq belə məlumatlara yeni istismar prosedurlarının effektivliyi və ya əməkdaşların dayanıqlı inkişafla bağlı təlim proqramlarının təsiri kimi keyfiyyət qiymətləndirmələri də daxil edilməlidir. Bu cür açıqlamalara misal olaraq donanmanın modernləşdirilməsi layihələrinin tamamlanma dərəcəsini, yeni texnologiyalardan əldə olunan faktiki və proqnozlaşdırılan yanacaq qənaətləri kimi məlumatları göstərmək olar.	• **Orta**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisə hesabat dövründə iqlimlə bağlı risk və imkanların onun maliyyə vəziyyətinə, maliyyə nəticələrinə və pul axınlarına necə təsir etdiyinə dair kəmiyyət və keyfiyyət məlumatlarını açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 15)***	ASCO iqlimlə bağlı risk və imkanların hesabat dövründə onun maliyyə vəziyyətinə, nəticələrinə və ya pul axınlarına təsir etdiyinə dair sübut təqdim etməmişdir.	• Hesabat dövrü ərzində iqlimlə bağlı risk və imkanların ASCO-nun maliyyə vəziyyətinə, nəticələrinə və pul axınlarına təsirini əks etdirən kəmiyyət və keyfiyyət məlumatlarını açıqlayın. Belə məlumatlara bazar tələbindəki dəyişikliklər səbəbilə gəlirlərdəki dəyişikliklər, azaldıcı strategiyaların həyata keçirilməsi ilə bağlı xərclər, az karbon texnologiyalarına sərmayələri və təkmilləşdirilmiş istismar səmərəliliyi nəticəsində əldə olunan qənaətlər və ya maliyyə faydaları daxildir. Keyfiyyət baxımından, iqlimlə bağlı risklərin ASCO-nun biznes modeli üzərində təsirini və aşağı səviyyəli karbon iqtisadiyyatına keçidin mümkün maliyyə nəticələrini müzakirə edin. Misallara karbon qiymətlərinin istismar xərclərinə təsiri, normativ dəyişikliklərin maliyyə nəticələri və iqlim siyasəti səbəbilə dəyərdən düşmüş aktivlərin qiymətləndirilməsinə təsiri daxildir.	• **Yüksək**
Müəssisə növbəti illik hesabat dövründə müvafiq maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərinin balans dəyərlərinə əhəmiyyətli düzəliş riski yaradan iqlimlə bağlı risk və imkanlar barədə kəmiyyət və keyfiyyət məlumatlarını açıqlamalıdır.	ASCO-nun Strategiyasında və Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planında köhnəlmiş gəmilərin 2024-cü ilə qədər (I Mərhələ) mərhələli şəkildə istismardan çıxarılması planı nəzərdə tutulmuşdur. Lakin, növbəti hesabat dövründə ASCO-nun aktivlərinə əhəmiyyətli düzəliş riski yaradan müəyyən edilmiş iqlimlə bağlı risk və imkanlar açıqlanmamışdır.	• Növbəti il ərzində iqlimlə bağlı risk və imkanların aktivlərin və öhdəliklərin dəyərinə potensial təsirləri barədə aydın şəkildə hesabat verin. Bu, iqlim dəyişikliyi səbəbilə aktiv dəyərlərində artım və ya azalma və borclarda dəyişiklik ehtimallarının hesablanmasını ehtiva etməlidir. Məsələn, Strategiya və Fəaliyyət Planının növbəti yenilənməsi çərçivəsində 2024-cü ilə qədər 40 köhnəlmiş gəminin istismardan çıxarılmasının maliyyə təsiri qiymətləndirilə bilər.	• **Orta**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
(BMHS S2, Paraqraf 16a - b)		əlavə olaraq, ASCO yeni ekoloji qanunvericiliyin bəzi gəmilərin dəyərini azalda biləcəyini və ya yaşıl texnologiyalara investisiyaların aktivlərin dəyərini artıra biləcəyini nəzərə almalıdır. Gələcək illik hesabatda bu potensial dəyişikliklərin həm rəqəmlərini, həm də onların səbəblərini açıqlamaq vacibdir.	
Müəssisə iqlimlə bağlı riskləri və imkanları idarə etmək strategiyasına əsalanmaqla, təşkilatın investisiya və satış planlarını və bu strategiyanı həyata keçirmək üçün planlaşdırılan maliyyə mənbələrini nəzərə alaraq, maliyyə vəziyyətinin qısa, orta və uzunmüddətli dövrlərdə necə dəyişəcəyinə dair ehtimallarına əsaslanan kəmiyyət və keyfiyyət məlumatlarını açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 16c)***	• ASCO iqlimlə bağlı riskləri, imkanları və idarəetmə strategiyasını rəsmi şəkildə Fformalaşdırmamış və qiymətləndirməmişdir ki, bu da müxtəlif zaman müddətlərində maliyyə vəziyyətindəki dəyişikliklərə dair proqnozların verilməsinə mane olur. • Maliyyə planları ətraflı deyil, lakin ASCO Ətraf - Mühit, Sosial, İdarəetmə təşəbbüsləri üçün yaşıl istiqrazların tətbiqi və resursların optimallaşdırılmasını strategiyasında nəzərdə tutur. • ASCO-nun Fəaliyyət Planında II Faza üçün təqribən 347,2 milyon ABŞ dolları və III Faza üçün 697,5 milyon ABŞ dolları həcmində maliyyə ehtiyacları nəzərdə tutulur, lakin maliyyə mənbələri göstərilmir.	• ASCO iqlimlə bağlı riskləri və imkanları idarə etməyə yönəlmiş strategiyasını inkişaf etdirdikcə və həyata keçirdikcə, maliyyə vəziyyətinin qısa, orta və uzunmüddətli dövrlərdə necə dəyişə biləcəyinə dair proqnozları açıqlamalıdır. Belə açıqlamada yaşıl istiqrazlardan istifadə imkanları da daxil olmaqla ətraf - Mühit, Sosial, İdarəetmə təşəbbüsləri ilə bağlı investisiya və satış planlarının aydın şəkildə göstərilməsi tövsiyə olunur. ASCO hələ iqlimlə bağlı riskləri tam qiymətləndirməsə və əhatəli idarəetmə strategiyası müəyyən etməsə də, onun bu amilləri maliyyə planlaşdırmasına inteqrasiya etməyə başlaması tövsiyə olunur Açıqlama, həmçinin Strategiya və Fəaliyyət Planının qarşıdakı fazaları üçün nəzərdə tutulan maliyyə ehtiyaclarına dair daha ətraflı məlumatı, o cümlədən potensial maliyyələşmə mənbələrinin müəyyən edilməsini və bu strateji qərarların maliyyə təsirlərini də əhatə etməlidir. Məsələn, ASCO donanmanın modernləşdirilməsindən gözlənilən maliyyə faydalarını və enerji səmərəliliyi tədbirlərinə yatırımlardan gözlənilən gəlirliliyi təsvir edə bilər.	• **Yüksək**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisə iqlimlə bağlı riskləri və imkanları idarə etmək strategiyasını nəzərə almaqla, təşkilatın maliyyə nəticələrinin və pul axınının qısa, orta və uzunmüddətli dövrlərdə necə dəyişəcəyinə dair kəmiyyət və keyfiyyət məlumatlarını təqdim etməlidir. ***(BMHS S2, Paraqraf 16c)***	ASCO-nun Strategiyasına iqlim mülahizələri daxildir, lakin maliyyə fəaliyyətində və pul axınlarında potensial dəyişikliklərin qiymətləndirilməsini əhatə etmir, çünki müəyyən edilmiş iqlimlə əlaqədar risklər də Strategiyada öz əksini tapmır.	• ASCO-nun iqlimlə bağlı riskləri və imkanları müəyyənləşdirməsi, qiymətləndirməsi və idarə etməsi prosesi irəlilədikcə, maliyyə nəticələrinin və pul axınının qısa, orta və uzunmüddətli dövrlərdə gözlənilən dəyişikliklərini açıqlamağa başlaması tövsiyə olunur. Buraya yanacaq növü dəyişmələri və ya səmərəliliyin yüksəldilməsi kimi potensial istismar dəyişikliklərinin gəlir və xərclərə təsirinin, eləcə də iqlimlə bağlı normativ dəyişikliklərin pul axınlarına təsirlərinin qiymətləndirilməsi daxildir. Açıqlamada ASCO-nun gələcək Strategiyasının maliyyə nəticələrinə necə təsir göstərə biləcəyi barədə keyfiyyət xarakterli izahat verilməsi, mümkün olduqda isə kəmiyyət göstəriciləri ilə dəstəklənməsi tövsiyə olunur. • Məsələn, ASCO donanmanın modernləşdirilməsi nəticəsində yanacaq sərfiyyatının azalmasından gözlənilən qənaətləri və ya ekoloji cəhətdən daha təmiz daşıma xidmətlərinə tələbin artması ilə gəlirlərin potensial artımını izah edə bilər.	• **Yüksək**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisə hesabat tarixində təşkilatın iqlim dəyişikliklərinə dayanıqlılığına dair qiymətləndirməsi barədə məlumat açıqlamalıdır ki, bu da ümumi məqsədli maliyyə hesabatlarının istifadəçilərində aşağıdakılara dair təsəvvür yaranmasına imkan verməlidir: • İqlimlə bağlı ssenari əsaslı təhlili nəticəsində müəyyən edilən təsirlərə cavab olaraq təşkilatın Strategiyasında və biznes modelində dəyişikliklərin zəruriliyi daxil olmaqla, bu qiymətləndirmənin Strategiyaya və biznes modelinə təsiri; • Müəssisənin İqlim dəyişikliklərinə dayanıqlılığının qiymətləndirilməsində nəzərə alınan əhəmiyyətli qeyri-müəyyənlik sahələri; • Müəssisənin öz Strategiyasını və biznes modelini qısa, orta və uzunmüddətli dövrlərdə iqlim dəyişmələrinə uyğun tənzimləmək və ya ona uyğunlaşmaq qabiliyyəti. ***(BMHS S2, Paraqraf 22a)***	• ASCO özünün strateji planlaşdırmasını daha da təkmilləşdirmək məqsədilə iqlimlə bağlı ssenari əsaslı təhlil həyata keçirməkdədir. • ASCO-nun öz Strategiyasını və biznes modelini iqlim dəyişmələrinə uyğunlaşdırmaq qabiliyyətini və gələcəkdə bu sahədə sübutlar və inkişaf imkanlarını nümayiş etdirmək potensialı mövcuddur.	• Müxtəlif iqlim ssenarilərinin (məsələn, temperaturun 2°C və ya daha az yüksəlməsi ssenarisi) şirkətin əməliyyatlarına və maliyyə nəticələrinə potensial təsirini qiymətləndirmək üçün ssenari təhlili alətlərindən istifadə edilməsi tövsiyə olunur. • Ssenari təhlilinin nəticələrinə əsaslanmaqla, iqlim dəyişikliklərinin ASCO-nun Strategiyasının və biznes modelinin növbəti versiyasında dəyişiklikləri zəruri edə biləcəyi hallar açıqlanmalıdır. Bura ssenari təhlilində vurğulanan təsirlərə qarşı müvafiq tədbirlər görmək üçün lazım olan tədbirlərin müəyyən edilməsini də aid edilməlidir. • Açıqlamanın içərisində həmçinin ASCO-nun iqlim dayanıqlılığına dair qiymətləndirməsində nəzərə alınan əsas qeyri-müəyyənlik sahələrinin də əhatə olunması tövsiyə olunur. Bura, iqlim elmi, siyasət inkişafları və ya bazar reaksiyaları ilə bağlı qeyri-müəyyənliklər də aid edilə bilər. • Nəhayət, ASCO-nun öz Strategiyasını və biznes modelini iqlim dəyişikliklərinə uyğun olaraq qısa, orta və uzunmüddətli dövrlərdə tənzimləmək və ya ona uyğunlaşmaq qabiliyyətini qiymətləndirməsi və açıqlaması tövsiyə olunur. Bura iqlim dayanıqlılığını artırmaq və iqlim dəyişiklikləri fonunda biznesin davamlılığını təmin etmək üçün mümkün yolların araşdırılması da aiddir.	• **Yüksək**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisə iqlimlə bağlı ssenariəsaslı təhlilinin nə zaman və necə aparıldığı, o cümlədən belə təhlilin həyata keçirilməsi prosesində istifadə edilən ilkin məlumatlar və əsas fərziyyələr barədə məlumatları açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 22b)***	ASCO hazırda iqlimlə bağlı ssenari təhlilini həyata keçirməkdədir.	• İqlimlə bağlı ssenari təhlilində istifadə olunan metodologiya, məlumatlar və fərziyyələri əhatə edən ətraflı hesabat hazırlanması və bu məlumatların maliyyə və dayanıqlılıq hesabatlarında açıqlanması tövsiyə olunur.	• **Aşağı**

3. ASCO-nun İqlim Risklərinin İdarə olunması üzrə təcrübəsinin təhlili

ASCO-nun daxili və xarici maraqlı tərəfləri, iqlimlə bağlı risklərin necə müəyyən edildiyini, qiymətləndirildiyini və idarə olunduğunu, həmçinin bu proseslərin Şirkətin mövcud risklərin idarə olunması çərçivəsinə və proseslərinə necə inteqrasiya edildiyini başa düşmək istəyirlər. BMHS S2 Standartının iqlimlə bağlı risklərin idarə olunması üzrə tövsiyələrinə uyğunluğun təhlili iqlimlə bağlı məsələlərin ASCO-nun risklərin idarə olunması təcrübəsinə daxil edilməsinə dair əlavə tövsiyələr təqdim edir. Təhlil BMHS S2 Standartının tələbləri əsasında hazırlanmışdır.

ASCO-nun risklərin idarə olunması sistemi MTSK-nin (COSO) Müəssisənin Risklərinin İdarə olunması metodologiyası əsasında qurulmuşdur. Risklərin idarə olunması prosesi Risklərin İdarə Olunması Siyasəti, Risklərin İdarə Olunması Konsepsiyası, Risklərin İdarə Olunmasına dair Təlimat və Risklərin Aşkarlanması, Qiymətləndirilməsi və Monitorinqinə dair Təlimatla tənzimlənir və TKSTK (COSO) metodologiyasına uyğun təcrübələriözündə ehtiva edir.

Risk jurnalının, risk xəritəsinin, kritik risk göstəricilərinin və əsas risklərə qarşı dözümlülük səviyyəsinin, risk xidmətinin fəaliyyət planının və risklərin idarə olunmasına dair rüblük və illik hesabatların nəzərdən keçirilməsi Müşahidə Şurasının Audit Komitəsinin vəzifələrinə daxildir.


Risk Komitəsi və Risklərin İdarə Olunması üzrə İşçi Qrupu risklərin idarə olunması ilə bağlı fəaliyyətlərə nəzarət və onların əlaqələndirilməsinin təmin edilməsi vəzifəsi daşıyır və risklərin idarə olunması prosesləri, risklərin monitorinqi planı və qabaqlayıcı tədbirlərin icrası ilə bağlı görülən işlərin qiymətləndirilməsini həyata keçirir.

ASCO-nun İdarəetmə Sisteminin Risklərin Qiymətləndirilməsi və İdarə Olunması bölməsində (3.3.3 Risklərin Qiymətləndirilməsi və İdarə Olunması), risk ssenarilərinin təhlili və təklif olunan önləyici / azaldıcı tədbirlərin və ya alternativ nəzarət tədbirlərinin qiymətləndirilməsi üçün Şirkət tərəfindən tətbiq olunan risk matrisi təsvir olunur. Risk matrisası metodologiyası potensial risk ssenarisi və ya təhlükənin başvermə ehtimalını və nəticələrini, eləcə də əlavə nəzarət tədbirləri tətbiq olunduqdan sonra risklərin səviyyəsini müəyyənləşdirir.

Sədr risklərin qiymətləndirilməsi və nəzarət tədbirlərinin təklif və təsdiqinə cavabdehdir, KSƏTƏM isə risklərin idarə olunması prosedurlarının hazırlanması, səmərəli icrası, maraqlı subyektlərə onlarla bağlı məlumat verilməsi və davamlı səmərəliliyinə cavabdehlik daşıyır.

ASCO BMHS S2 tələblərinə uyğun olaraq, iqlimlə bağlı risklərin və imkanların ətraflı siyahısını rəsmi şəkildə konsolidasiya etməli və onların idarə olunması üçün strukturlaşdırılmış yanaşma formalaşdırmalıdır. Bu iqlim amilləri daha sonra əhəmiyyətlilik baxımından qiymətləndirilməli və əhəmiyyətlilik dərəcəsi üzrə sıralanmalıdır. Hər bir iqlimlə bağlı risk və imkanın qiymətləndirilməsində onların potensial təsiri, başvermə ehtimalı və zamanlama aspektləri nəzərə alınmalıdır. Onu da qeyd etmək lazımdır ki, iqlim riskləri yalnız normativi məsələləri deyil, həm də iqlim dəyişikliyinin fiziki təsirlərini (həm dərhal, həm də tədricən) və aşağı karbonlu iqtisadiyyata keçidlə bağlı bütün nəticələri, o cümlədən siyasət və hüquqi dəyişiklikləri, texnoloji dəyişiklikləri, bazar dinamikasını və reputasiya ilə bağlı narahatlıqları da əhatə edir. Bu proses aşağıdakı sxemdə əks etdirilmişdir.

Şəkil 3. İqlimlə bağlı risk və imkanların müəyyən edilməsi, qiymətləndirilməsi və prioritetləşdirilməsi üzrə çərçivə



Cədvəl 6 İqlimlə bağlı risklərin idarə olunması üzrə uyğunsuzluq təhlili

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisə **iqlimlə bağlı risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, prioritetləşdirilməsi və monitorinqi üçün istifadə etdiyi proseslər və əlaqəli siyasətlər barədə**, o cümlədən aşağıdakılarla bağlı məlumat açıqlamalıdır: • Müəssisənin istifadə etdiyi daxil edilməli ilkin məlumatlar və parametrlər; ; • Müəssisənin iqlimlə bağlı risklərin müəyyənləşdirilməsində ssenari əsaslı təhlildən istifadə edib-etmədiyi və necə istifadə etdiyi barədə məlumatlar.	• ASCO iqlimlə bağlı riskləri müəyyən etmişdir, lakin bu risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, prioritetləşdirilməsi və monitorinqi üçün rəsmi şəkildə müəyyən olunmuş proseslərə malik deyil və müəyyən edilmiş risklərin necə qiymətləndirildiyini, prioritetləşdirildiyini və idarə edildiyini açıqlamır. • ASCO hazırda iqlimlə bağlı ssenari təhlilini həyata keçirməkdədir.	• Tövsiyə olunur ki, mövcud iqlimlə bağlı risklər ASCO-nun risklərin idarə olunması çərçivəsinə inteqrasiya edilsin. • Iqlimlə bağlı risklərin idarə olunması (müəyyənləşdirmə, monitorinq, qiymətləndirmə) üzrə proseslər ASCO-nun korporativ risklərin idarə olunması sənədlərində (ASCO-nun İdarəetmə Sistemi sənədinin 3.3.3 “Risklərin Qiymətləndirilməsi” və 3.3.4 “Tapşırıq Risklərinin Qiymətləndirilməsi” bölmələri) rəsmi şəkildə təsbit edilməlidir. . Müəyyən edilmiş iqlim risklərinin potensial miqyası və təsir sahəsinin qiymətləndirilməsi üçün istifadə olunan proseslərin ətraflı təsvirinin daxil edilməsi tövsiyə olunur.	► **Aşağı**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
• Müəssisənin bu risklərin xarakterini, başvermə ehtimalını və nəticələrinin ölçüsünü necə qiymətləndirdiyini (məsələn, keyfiyyət göstəriciləri, kəmiyyət hədləri və ya digər meyarlar), • Müəssisənin iqlimlə bağlı riskləri digər risklərə nisbətən necə prioritetləşdirdiyini; • Müəssisənin bu riskləri necə monitorinq etdiyini; • Müəssisə əvvəlki hesabat dövrü ilə müqayisədə bu proseslərdə hansı dəyişikliklərin olduğunu açıqlayıb - açıqlamadığını və necə açıqladığını. ***(BMHS S2, Paraqraf 25a)***		• Müəyyən edilmiş iqlimlə bağlı risklərin ASCO-nun Risk Jurnalına daxil edilməsinin və bu risklərin prioritetləşdirilməsinin təmin olunması tövsiyə edilir. • Bundan əlavə, ssenari təhlilinin nəticələrinin risklərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi prosedurlarında nəzərə alınması tövsiyə olunur (məsələn, İdarəetmə Sistemi sənədinin 3.3.3 "Risklərin Qiymətləndirilməsi" və 3.3.4 "Tapşırıq Risklərinin Qiymətləndirilməsi" bölmələrnəi).	
Müəssisə iqlimlə bağlı imkanların müəyyənləşdirilməsi, qiymətləndirilməsi, prioritetləşdirilməsi və monitorinqi üçün istifadə olunan proseslər barədə, o cümlədən bu imkanların müəyyənləşdirilməsində ssenari təhlilindən istifadə olunub-olunmadığı və necə istifadə olunduğu barədə məlumat açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 25b)***	ASCO iqlimlə bağlı riskləri müəyyən etmiş olsa da, iqlimlə bağlı imkanların müəyyənləşdirilməsini, qiymətləndirilməsini, prioritetləşdirilməsini və monitorinqini tənzimləyən proses və sənədlər təsbit etməmişdir.	• Tövsiyə olunur ki, iqlimlə bağlı imkanların idarə olunması prosesləri (müəyyənləşdirmə, monitorinq, qiymətləndirmə) ASCO-nun aşağıdakı korporativ sənədlərində - İdarəetmə Sistemi sənədinin 3.3.3 "Risklərin Qiymətləndirilməsi" və 3.3.4 "Tapşırıq Risklərinin Qiymətləndirilməsi" bölmələrində və ya müvafiq digər korporativ sənədlərdə, məsələn, Dayanıqlı İnkişaf Siyasəti, ASCO-nun Strategiyası, Emissiyaların Azaldılması üzrə Fəaliyyət Planında rəsmi şəkildə təsbit olunsun. • Bundan əlavə, ssenari təhlilinin nəticələrinin iqlimlə bağlı imkanların müəyyənləşdirilməsi və qiymətləndirilməsi prosedurlarında nəzərə alınması tövsiyə olunur (məsələn, yuxarıda göstərilən bölmələrdə).	► **Aşağı**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisə iqlimlə bağlı risk və imkanların müəyyənləşdirilməsi, qiymətləndirilməsi, prioritetləşdirilməsi və monitorinqi proseslərinin qurumun ümumi risklərin idarə olunması prosesinə hansı səviyyədə və necə inteqrasiya edildiyini açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 25c)***	ASCO-da iqlimlə bağlı risklərin idarə olunması üzrə proseslər hələ rəsmi şəkildə müəyyən edilməmiş və ümumi risklərin idarə olunması çərçivəsinə inteqrasiya olunmamışdır, lakin iqlimlə bağlı risklər müəyyən olunmuşdur.	• Tövsiyə olunur ki, iqlimlə bağlı risk və imkanların idarə olunması ASCO-nun ümumi risklərin idarə olunması sisteminə rəsmi şəkildə inteqrasiya edilsin. Bu inteqrasiya COSO Müəssisə Risklərinin İdarə Olunması metodologiyasına uyğun şəkildə və müvafiq risk terminologiyası ilə həyata keçirilməlidir. Iqlimlə bağlı risk və imkanların müəyyənləşdirilməsi, prioritetləşdirilməsi və monitorinqi prosesləri aşağıdakı korporativ sənədlərdə təsbit olunmalıdır: İdarəetmə Sistemi sənədinin 3.3.3 “Risklərin Qiymətləndirilməsi” və 3.3.4 “Tapşırıq Risklərinin Qiymətləndirilməsi” bölmələri.	► **Aşağı**

4. ASCO-nun İqlimlə bağlı Ölçü Göstəriciləri və Hədəfləri üzrə təcrübəsinin təhlili

ASCO-nun iqlim strategiyası, o cümlədən onun 2050-ci ilə qədər xalis sıfır emissiya hədəfi, maraqlı tərəflərin gözləntilərinə və BMHS S2 standartlarına cavab vermək üçün daha yüksək şəffaflıq tələb edir. Hazırkı açıqlamalarda 3-cü əhatə dairəsi üzrə istixana qazı emissiyalarına dair məlumatlar yer almır və İstixana Qazlarının Ölçülməsi Metodologiyası mövcud olsa da, onun əhatə dairəsi və yetkinlik səviyyəsi məhduddur. Bundan əlavə, iqlim risklərinin qiymətləndirilməsi üzrə məlumat təqdim olunmamışdır. Qeyd olunanlardan əlavə, dayanıqlı investisiyalar və iqlimlə bağlı meyarların maliyyə və idarəetmə qərarlarına inteqrasiyası barədə də məlumat çatışmazlığı mövcuddur. BMHS S2 standartlarının tələblərinə cavab vermək üçün ASCO iqlimlə bağlı risklər və imkanlarla əlaqədar əhatəli ölçülər (göstəricilər) və hədəflər təqdim etməli, iqlimlə bağlı təşəbbüsləri və fəaliyyət göstəricilərini tam və şəffaf şəkildə açıqlamalıdır.

Cədvəl 7. İqlimlə bağlı ölçü göstəriciləri və hədəflər üzrə uyğunsuzluq təhlili

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Müəssisə hesabat dövrü ərzində yaranmış istixana qazlarının (CO_2 ekvivalentində) ümumi emissiyalarını, aşağıdakı əhatə dairələri üzrə açıqlamalıdır: • 1-ci əhatə dairəsi üzrə istixana qazları emissiyası, • 2-ci əhatə dairəsi üzrə istixana qazları emissiyası, • 3-ci əhatə dairəsi üzrə istixana qazları emissiyası. • Müəssisə İstixana qazı emissiyalarının ölçülməsi üçün istifadə etdiyi yanaşmanı və metodologiyanı (məsələn, İQ Protokolu) açıqlamalıdır. ***(BMHS S2, Paraqraf 29a)***	• ASCO 2021, 2022 və 2023-cü illər üzrə birbaşa və dolayı emissiyaları açıqlamışdır. • ASCO 3-cü əhatə Dairəsi üzrə emissiyaları açıqlamamışdır. • İstixana qazlarının ölçülməsi metodologiyası barədə də məlumat təqdim edilməmişdir. 2	• İstixana Qazları Protokolunun Korporativ Standartını və əhatə dairəsi 3 Standartını tətbiq edin. . • 3-cü əhatə Dairəsi üzrə emissiyaları açıqlayın: İstixana Qazları Protokolunun 3-cü əhatə Dairəsi Standartından istifadə edərək müvafiq 3-cü əhatə Dairəsi kateqoriyasını müəyyən edin. Təchizatçılar və müştərilərdən məlumat toplanaraq İstixana Qazları Protokolunun alətlərindən istifadə etməklə emissiyaların hesablamasını aparın. Kateqoriya üzrə bölünmə şərtilə 3-cü əhatə Dairəsi üzrə emissiyaların cəmi haqqında hesabat (məlumat) verin. • Audit və məlumatların yoxlanılması kimi daxili nəzarət tədbirlərindən istifadə edin. Fəaliyyət haqqında məlumatları İstixana Qazları emissiyalarına çevirmək məqsədi ilə ümumtanınmış emissiya amillərindən (məsələn, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Ekspert Qrupu (IPCC)) istifadə edin. Aşkarlıq prinsipinə tam riayət etməklə, həm daxili istifadə həm də dayanıqlı inkişaf haqqında hesabatlara daxil edilməsi məqsədilə metodologiyaları ətraflı şəkildə sənədləşdirin. • İstixana Qazları üzrə emissiya məlumatlarına dair üçüncü tərəflərin yoxlamasının aparılmasını təmin edin. Sənaye üzrə oxşar subyektlər ilə göstəriciləri müqayisə edin standart təcrübələrə uyğunluq məsələsini maraqlı tərəflərə izah etmək üçün onlarla görüşün.	• **Orta**

Müəssisə iqlimlə bağlı keçid riskləri, fiziki risklər və imkanlarla bağlı sahələrarası göstərici kateqoriyalarına aid olan, risklərə və imkanlara məruz qalan aktivlərin və ya biznes fəaliyyətlərinin miqdarı və faizi barədə məlumat açıqlamalıdır.	• ASCO nə iqlimlə bağlı risklərin sahələrarası göstərici kateqoriyalarına, nə də əhatə olunan aktiv və ya biznes fəaliyyətlərinin faizi barədə heç bir məlumat açıqlamır.	• ASCO-nun iqlimlə bağlı risklərə məruz qalan aktivlərini və ya biznes fəaliyyətini müəyyən edin və faizlərini hesablayın. Belə hesablamalara fiziki və keçid risklərinin qiymətləndirilməsi də daxildir və nəticələr dəqiq faizlər şəklində hesabatlarda təqdim edilməlidir.	• **Orta**

[2] ASCO, Dayanıqlı İnkişaf Hesabat 2022 – 2023, s. 144

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
. ***(BMHS S2, Paraqraf 29 b- d)***	• İqlimlə bağlı bəzi risklər kateqoriyalara bölünmədən, həmin risklərlə bağlı ehtimal və ya təsir qiymətləndirməsi aparılmadan Dayanıqlı İnkişaf Hesabatında əks etdirilmişdir. • Qeyri-rəsmi olaraq müəyyən edilmiş risklərə daha sərt BDT tələbləri, Xəzər dənizinin səviyyəsinin azalması, yeni texnologiyalara yatırımların səmərəsizliyi, neft və qaz resurslarından asılılıq, küləkli hava şəraiti və s. kimi amillərin mövcudluğu səbəbindən naviqasiya çətinlikləri daxildir 3.	Maraqlı tərəfləri iqlim risklərinə məruz qalma haqqında aydın təsəvvürlərlə təmin etmək üçün bu faizləri açıqlamalarda aydın şəkildə göstərin. • İqlimlə bağlı risklər və imkanlar üzrə hesabatlılıq üçün aydın ölçmə və göstəriciləri işləyib hazırlayın. Belə ölçmələr maraqlı tərəflərin risklərin və imkanların miqyasını, eləcə də ASCO-nun dayanıqlığını və uyğunlaşma qabiliyyətini anlamalarına imkan verməsi üçün tövsiyə olunur. • Kateqoriyalaşdırılmış, qiymətləndirilmiş və kəmiyyətcə ifadə olunmuş iqlimlə bağlı risklər və imkanları ASCO-nun Dayanıqlı İnkişaf Hesabatına daxil edin edilməlidir. Bunların daxil edilməsi isklərin qiymətləndirilməsi və kəmiyyətcə ifadə olunması üçün istifadə edilən metodologiyaların ətraflı izahı və aşkar olunanların aydın təqdimatı məqsədilə tövsiyə olunur. • Aşkar olunanların və ASCO-nun risklərin idarə olunması və imkanlardan faydalanma strategiyalarının izahı üçün maraqlı tərəflərlə qarşılıqlı əlaqə yaradın. Belə əlaqə məqsədilə investorların qısa şəkildə məlumatlandırılması, dayanıqlılıq haqqında forumların təşkil olunması və ASCO-nun veb saytında məlumatların yenilənməsi kimi tədbirlərdən istifadə oluna bilər.	
Müəssisə kapitalın yerləşdirilməsi üzrə sənayelərarası ölçmə göstəriciləri - — iqlimlə bağlı risklər və imkanlara yönəldilmiş kapital xərcləri, maliyyələşdirmə və ya investisiya məbləğləri, daxili karbon qiymətləri və mükafatlandırma haqqında məlumatlar ilə bağlı məlumatları açıqlamalıdır.	• ASCO Dayanıqlı İnkişaf Hesabatında dayanıqlı gəmi tikintisinə və alınmasına dair əhəmiyyətli investisiyalar qeyd edir, lakin kapital xərcləri və ya ayrılmış maliyyə vəsaitləri, eləcə də daxili karbon həcmləri və ya iqlim göstəricilərinə bağlı rəhbər heyətin mükafatlandırılması barədə konkret ətraflı açıqlama	• Spesifik olaraq iqlimlə bağlı təşəbbüslərə ayrılmış kapital xərclərini müəyyənləşdirin və kəmiyyətcə ifadə edin.	• **Yüksək**

	verilmir.		

[3] ASCO-nun Dayanıqlı İnkişaf Hesabatı 2020 - 2021

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
(BMHS S2, Paraqraf 29 e - g)		• ASCO-nun daxili karbon qiymətləri mexanizmini hazırlayın və açıqlayın, bu zaman 1 ton CO2 üçün müəyyən edilmiş qiymət və onun qərarların qəbuluna və investisiya strategiyalarına necə təsir göstərdiyi barədə məlumat verin. • Rəhbər vəzifəli şəxslərin və işçilərin mükafatlandırılmasını iqlimlə bağlı fəaliyyət göstəriciləri ilə əlaqələndirən siyasətlər hazırlayın və tətbiq edin. Bura İstixana Qazları tullantılarının azaldılması, dayanıqlı inkişaf məqsədləri baxımından irəliləyiş və iqlim təşəbbüslərinin uğurla həyata keçirilməsi kimi göstəricilər aid edilə bilər. Bu siyasətləri və mükafatlandırılmaya təsir edən konkret iqlimlə bağlı hədəfləri aydın şəkildə açıqlayın.	
Müəssisə özünün iqlimlə bağlı hədəflərini o cümlədən aşağıdakı məlumatları müfəssəl şəkildə açıqlamalıdır: • • Hədəflərin ölçü göstəriciləri, • Məqsədlər, • Tətbiq sahəsi, • Müddətlər, • Əsas müddətlər, • Mərhələlər, • Əgər hədəf kəmiyyətcədirsə, bu hədəfin mütləq yoxsa intensivlik hədəfi olmaması, • İqlim dəyişikliyi ilə bağlı son beynəlxalq saziin və bu sazişdən irəli gələn yurisdiksiya öhdəliklərinin bu hədəfə necə təsir etdiyi, • Təsdiqləmə metodları.	• ASCO, 2050-ci ilə qədər 100% xalis sıfır emissiyası üzrə fəaliyyət hədəfi müəyyən edən və BDT tələblərinə uyğun olaraq CO2 emissiyalarını azaltmaq üçün 4 mərhələli fəaliyyət planı hazırlamışdır. . • Həmin mərhələlərə hissəvi (fazalar üzrə) azalmalar daxildir və əsas mərhələlər 2030 (10% azalma), 2040 (70 - 80% azalma) və 2050 (xalis-sıfır) illər üçün müəyyən edilmişdir. • ASCO həmçinin milli prioritetlərə və Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq yaşıl texnologiyaları da inteqrasiya edir.	• ASCO-nun iqlim hədəfləri üçün konkret kəmiyyət göstəriciləri müəyyən edin və irəliləyişin ölçülməsi üçün baza ilini təyin edin. Bu, irəliləyişin effektiv şəkildə izlənməsi və hesabatlandırılması üçün aydın və ölçülə bilən məqsədlər müəyyən etməyi tələb edir. • Hədəflərin təsdiqlənməsi üçün istifadə olunan metodlar məsələn, ssenari əsaslı təhlil və ya sənaye standartları ilə müqayisəli təhlil barədə ətraflı şəkildə məlumat verin. Hədəfləri və irəliləyişi təsdiq etmək üçün üçüncü tərəf auditlərinin keçirilməsi üçün tədbir görün. • Emissiya məlumatlarının rüblük əsasla nəzərdən keçirilməsi və irəliləyişin izlənməsi üçün əsas icra göstəricilərinin (əİG-lərin) müəyyən olunması kimi mütəmadi monitorinq proseslərini tətbiq edin.	• **Aşağı**

BMHS S2 üzrə tələb	Cari vəziyyətdə müşahidə olunanlar	Tövsiyələr	Səylər
Monitorinq prosesləri və icra səmərəliliyinin təhlili ***(BMHS S2, Paraqraf 33 - 36)***		• Hədəflərin Azərbaycanın Paris Sazişi çərçivəsində müəyyən edilmiş Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrinə (NDC) nə dərəcədə uyğunluğunu izah edin. • Aralıq mərhələlər təyin edin (məsələn, illik və ya ikiillik hədəflər) və onların mütəmadi nəzərdən keçirilməsi və tənzimlənməsi üçün prosedur və dövrlük təsbit edin. • Yeni normativlər, texnoloji yeniliklər və sənaye meylləri nəzərə alınmaqla hədəflərin illik nəzərdən keçirilməsi və yenilənməsi prosesini yaradın.	

[4] ASCO, Dayanıqlı İnkişaf Hesabat 2022 – 2023, s. 120

ASCO-nun Hesabat vermə üzrə təcrübəsinin təhlili

ASCO-nun dayanıqlı inkişaf hesabatı gəmiçiliyin dəniz ekosistemlərinə təsiri, emissiyalar və resurs istehlakı kimi bu sahəyə xas olan ətraf mühit ilə bağlı problemlərə qarşı şirkətin tədbir görmək öhdəliyini vurğulayır. Şəffaflıq və müqayisəolunalıq tələblərini təmin etmək məqsədilə ASCO Hesabatlılıq üzrə Qlobal Təşəbbüs (GRI) standartlarına riayət edir. Bu standartlar vasitəsilə ASCO, öz fəaliyyəti ilə bilavasitə bağlı olan Ətraf - Mühit, Sosial, İdarəetmə məsələlərinin idarə olunmasına dair səylərini ictimaiyyətə çatdırmağı qarşısına məqsəd qoyur.

Hesabatda Dayanıqlı İnkişaf Siyasəti, mühüm məsələlərin qiymətləndirilməsi, maraqlı tərəflərlə əməkdaşlıq, dayanıqlılığın biznes fəaliyyətlərinə inteqrasiyası və Ətraf - Mühit, Sosial, İdarəetmə ilə bağlı təşəbbüslər kimi mövzularda geniş məlumat təqdim olunur. Hesabatda həmçinin səhmdarların idarə olunması, strateji planlaşdırma, mükafatlandırma sistemləri, daxili auditlər, risklərin idarə olunması və gələcək inkişaf planları kimi sahələri əhatə edən korporativ idarəetmə barədə ayrıca bölmələr mövcuddur. Bundan əlavə, Hesabat insan resurslarının idarə olunması, sosial təşəbbüslər və ətraf mühitin mühafizəsi sahəsində görülən işlərə də toxunur.

ASCO siyasətlərini BMT-nin 17 Davamlı İnkişaf Məqsədi (DİM) ilə uzlaşdırır. Ədalətli əməkhaqqı, təhlükəsiz iş şəraiti, sağlamlıqla bağlı təminatlar və əməkdaşların peşəkar inkişafına dəstək şirkətin əsas dəyərləri sırasındadır. Şirkət gender bərabərliyinin təşviqi və ayrı-seçkiliyə yol verilməyən iş mühitinin təmin edilməsi öhdəliyinə sadiqdir. Bu öhdəlik mahiyyət etibarilə karyera imkanlarını yalnız layiqlik və icra səmərəliliyi meyarlarına əsaslandığını təsbit edir. ASCO ətraf mühitin dayanıqlılığına xüsusi önəm verir və bu istiqamətdə emissiyaların azaldılması, su ehtiyatlarının qorunması və gəmiçilik fəaliyyətlərinə bərpa olunan enerji texnologiyalarının inteqrasiyası sahəsində təşəbbüslər həyata keçirilir. Şirkət, həmçinin, 2030-cu ilə qədər Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması üzrə qlobal səylərə töhfə vermək məqsədilə yerli və beynəlxalq maraqlı tərəflərlə əməkdaşlığı gücləndirir.

Hesabatın ətraf mühitlə bağlı hissəsində ASCO-nun genişlənmə tədbirləri, xüsusilə Aframax tipli gəmilərin alınması və yeni bazarlara daxil olması ətraflı şəkildə qeyd edilir. Lakin, ASCO-nun daşımalarının həcminin artdığının vurğulanmasına baxmayaraq, hesabatda bu artımın karbon izi ilə bağlı hansı tədbirlərlə müşayiət edildiyi aydın şəkildə göstərilmir.

Hesabat həmçinin ASCO-nun sosial məsuliyyəti və əmək praktikasını, xüsusilə dəniz donanma xidmətlərində və SOCAR ilə əməkdaşlıq çərçivəsində təqdim edir və şirkətin Azərbaycanın iqtisadiyyatı və neft-qaz sənayesindəki mühüm rolunu vurğulayır.

ASCO-nun Xəzər dənizinin hüdudlarından kənar bazarlara çıxmaq strategiyası onun gələcəyi düşünən inkişaf planlarının mövcud olduğunu göstərir, lakin Hesabatda ətraf - Mühit, Sosial, İdarəetmə amilləri ilə bağlı risklərin necə idarə edildiyinə dair daha ətraflı məlumat təqdim edilə bilərdi. Hesabatda geniş maliyyə məlumatları qeyd olunsa da, qeyri-maliyyə hesabatlılığı ətraf mühitə təsir və əməkdaşların iştirakı kimi sahələrdə daha balanslı yanaşma üçün təkmilləşdirilə bilər.

Hesabat həmçinin ASCO-nun müxtəlif yüklər üçün güzəştli tariflərin qorunması və Xəzər marşrutları üzrə daşımaların dayanıqlığını təmin etməyə dair səylərini əks etdirir ki, bu da şirkətin bazar tələblərinə çevik reaskiya vermə qabiliyyətinin mövcudluğundan xəbər verir. Bundan əlavə, istiqraz buraxılışı və Avropa Yenidənqurma və İnkişaf Bankından (EBRD) maliyyələşmənin təmin edilməsi ASCO-nun fəaliyyətini gücləndirməyə yönəlmiş strateji addımlarını nümayiş etdirir.

Əlavə B: Bənzər müəssisələrin qabaqcıl təcrübəsinə ümumi baxış

ASCO-nun BMHS S2 standartlarına uyğun olaraq iqlim idarəçiliyi sahəsində qabaqcıl təcrübələri mənimsəməsini dəstəkləmək məqsədilə, MOL, Matson və Euronav şirkətlərinin idarəetmə, strategiya, risklərin idarə olunması, ölçü göstəriciləri və hədəflərini əks etdirən ətraflı cədvəl tərtib olunmuşdur. Bu şirkətlər iqlimlə bağlı məsələlərin özlərinin korporativ çərçivələrinə inteqrasiyası baxımından mükəmməlik nümayiş etdirirlər. Bu cədvəl ASCO üçün iqlim idarəçiliyi siyasətlərini təkmilləşdirmək məqsədilə nümunə rolunu oynayır.

Cədvəl *8*. Bənzər müəssisələrin qabaqcıl təcrübələri

Bənzər müəssisələrin qabaqcıl təcrübələrinə uyğunlaşdırılmalı olan cəhətlər
İdarəetmə
• MOL şirkətində iqlim dəyişikliyi ilə bağlı idarəetmə möhkəm və müfəssəl struktura malikdir. Qərarların qəbulu İcraçı Direktorun rəhbərliyi ilə həyata keçirilir, Ətraf Mühitin Dayaıqlılığı üzrə Direktor (CSuO) isə ekoloji təşəbbüslərə nəzarəti həyata keçirir. Maliyyə Direktorunun (CFO) sədrlik etdiyi və Ətraf Mühitin Dyanıqlılığı üzrə Direktorun sədr müavini olduğu Dyanıqlı İnkişaf Komitəsi əsas dayanıqlı inkişaf məsələlərinə baxır və İcra Komitəsinə, eləcə də Direktorlar Şurasına müntəzəm olaraq hesabat verir. Ətraf Mühit və Dayanıqlı İnkişaf Strategiyası Şöbəsi dayanıqlı inkişaf fəaliyyətlərini şirkətin idarəetmə planına və biznes strategiyalarına inteqrasiya edir. Rəhbər vəzifəli şəxslərin mükafatlandırılması (əməkhaqqı sistemi) iqlimlə bağlı əsas icra səmərəliliyi göstəriciləri (ƏİG) ilə əlaqələndirilir. • Matson şirkətinin Direktorlar Şurası dayanıqlı inkişafı özünün idarəetmə çərçivəsinə inteqrasiya edir və xüsusi Ətraf - Mühit, Sosial, İdarəetmə mövzularına baxmaq üçün müstəqil komitələrdən (Ətraf - Mühit, Sosial, İdarəetmə üzrə İşçi Qrupu, Yaşıl Komanda) istifadə edir. Audit Komitəsi, müəssisənin iqlimlə bağlı risklərini də özündə ehtiva edən müəssisənin risklərinin idarə olunması (ERM) proqramına nəzarəti həyata keçirir. Ətraf - Mühit, Sosial, İdarəetmə məsələləri ilə bağlı Şuraya müntəzəm olaraq məlumatlar təqdim olunur ki, bu da fasiləsiz iştirak və nəzarəti təmin edir. • **INSW** şirkəti Direktorlar Şurası və rəhbərlik arasında iqlimlə bağlı risklərə və imkanlara nəzarət üzrə rolları və vəzifələri aydın şəkildə müəyyən edir. Direktorlar Şurasına iqlimlə bağlı məsələlər barədə müntəzəm məlumat verilməsi aktiv nəzarət və iştirakın sübutudur.
Strategiya
• **MOL** şirkəti tənzimləyici dəyişikliklər, bazar dəyişiklikləri və iqlim dəyişikliyinin fiziki təsirləri kimi iqlimlə bağlı riskləri müəyyən edir və aşağı karbon texnologiyalarına keçid və enerji səmərəliliyinin artırılması imkanlarını tanıyır. MOL 2°C və ya daha aşağı ssenarini də əhatə edən ssenari təhlilini maliyyə təsirləri ilə birlikdə həyata keçirərək strategiyasının dayanıqlılığını nümayiş etdirir. MOL-un "Ətraf Mühit Vizionu 2.2" adlı planında istixana qazı emissiyalarının azaldılması ssenarisi və 2050-ci ilə qədər sıfır emissiya hədəfinə çatmaq üçün konkret tədbirlər nəzərdə tutulur. Bu tədbirlərə dekarbonizasiya layihələrinə investisiyalar və alternativ yanacaqla işləyən gəmilərin tətbiqi daxildir. • **Matson** şirkəti müxtəlif zaman kəsimlərində biznesə təsir edə biləcək təxminən 25 ədəd iqlimlə bağlı riskin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üçün ətraflı ssenari təhlili aparmışdır. Bu risklər keçid və fiziki risklər olaraq təsnifləşdirilmişdir və BMHS S2 tövsiyələrinə uyğun şəkildə qurulmuşdur. Onlar əsas keçid və fiziki riskləri müəyyən etmiş və bu riskləri azaltmaq üçün hərtərəfli dayanıqlılıq tədbirlərini tətbiq etmişlər.
Risklərin idarə edilməsi
• **MOL** şirkəti iqlimlə bağlı riskləri "yeni yaranan" və "biznesin icrası" kateqoriyalarına ayırır ki, bu da əvvəllər tanınmayan risklərin idarə olunmasına kömək edir. Bu risklər Direktorlar Şurası və İcra Komitəsində müzakirə olunur və siyasətlər müəyyən edilir, həm də bu risklər imkan kimi dəyərləndirilir. Rəhbər vəzifəli şəxslər risklərin idarə olunmasına nəzarət edir və əsas risklər İcra Komitəsinə bildirilir. Daxili nəzarət şöbəsi əsas qərarlardan əvvəl riskləri qiymətləndirir və bu, İcra Komitəsi və Direktorlar Şurası tərəfindən hərtərəfli qiymətləndirməni təmin edir. • **Matson** şirkəti iqlimlə bağlı mühüm riskləri müəyyənləşdirmək üçün ssenari təhlili seminarı keçirmiş, iqlim məsələlərinə uyğun spesifik risk jurnalı hazırlamışdır. Bu jurnal fiziki və keçid risklərinin keyfiyyətcə təhlilini və gözlənilən maliyyə təsirlərini əhatə edir. Hər bir risk ehtimal və təsir səviyyəsinə görə qiymətləndirilmiş, riskin idarə olunması ilə bağlı məsul şəxs təyin edilmiş və dayanıqlılığı təmin etmək üçün azaldıcı tədbirlər müəyyən edilmişdir.

- **Euronav** şirkəti onun fəaliyyətinə təsir edə biləcək bütün risklər, o cümlədən iqlimlə bağlı risklər və imkanlar barədə geniş anlayış təqdim edir.
  . Bunlara Qlazqo İqlim Razılaşması və Klaybenk Bəyannaməsi daxildir.

Ölçmələr və hədəflər

- **MOL** şirkətinin iqlimlə bağlı hədəf və ölçü göstəriciləri istixana qazı emissiyalarının azaldılması və aşağı karbon texnologiyalarına keçid üzrə güclü öhdəlik əks etdirir və bu hədəflər Beynəlxalq Dəniz Təşkilatının 2050-ci ilə qədər 50% azalma hədəfini üstələyir. Bu hədəflər beynəlxalq çərçivələrlə uyğunlaşdırılmışdır və müntəzəm olaraq izlənilir və onlar barədə hesabat verilir. Onların təshihedici investisiya strategiyası və daxili karbon qiymətləndirməsindən istifadə etməsi bu iddialı hədəflərə nail olmaq üçün hərtərəfli yanaşmanı nümayiş etdirir.
- **Matson** şirkəti iqlimlə bağlı ölçü göstəriciləri və hədəflər üzrə dayanıqlı yanaşmanı nümayiş etdirir. Onlar Layihələndirilən Enerji Səmərəliliyi İndeksi (EEDI), yanacaq istifadəsi və İstixana Qazı Emissiyaları (İQ) üzrə 1, 2 və 3-cü Əhatə Dairəsi də daxil olmaqla geniş göstəricilər məcmusunu izləyir. Şirkət emissiyaların azaldılması və səmərəliliyin artırılması üçün aydın qısa, orta və uzunmüddətli məqsədlər müəyyən etmişdir. Donanmanın yenilənməsi və sənaye qrupları ilə əməkdaşlıq kimi strateji təşəbbüslər onların dekarbonizasiya və dayanıqlıq vəzifələrinə olan sadiqliyini dəstəkləyir.
- Euronav şirkəti ətraf - Mühit, Sosial, İdarəetmə ilə bağlı aydın əsas icra səmərəliliyi göstəriciləri (ƏİG) və iqlimlə bağlı hədəflərə doğru irəliləyişlərin monitorinqini təmin etmək məqsədilə ölçülə bilən meyarlar təsbit etməklə dayanıqlı maliyyələşdirmədə şəffaflıq təmin edir. Bunlara Poseydon Prinsiplərinə əsasən Çox İri Xam Neft Daşıyıcısı və Suezmax tipli gəmilər üçün İllik Səmərəlilik əmsalının (AER) azaldılması hədəfləri, berbout çarter altında idarə olunan gəmilər üçün A və ya B səviyyəsində Karbon İntensivliyi Göstəricisi reytinqinə çatmağa əsaslanan dayanıqlılıq göstəriciləri, Üzən Anbar və Boşaltma (FSO) gəmiləri üçün spesifik yanacaq sərfi hədəfləri daxildir.
  .